# QARABAĞ AZƏRBAYCANDIR!

**11 oktyabr 1998-ci il: Xalqın arzularının təntənəsi günü**



4

SƏS
№ 185 (6626) 11 oktyabr 2022-ci il. Qiyməti 60 qəpik

## ABŞ dövlət katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib





2




11

**Müharibədə yeni dalğa**



8

**Erməni deputat: "Gorus-Qafan yolu Ermənistanın sərhədlərinə daxil deyil"**



12

**Bazarlarda ərzaq qiymətləri necə dəyişir?**



13

**DİQQƏT: Bu şəxslər qadağan edilən peşələrdə işləyə bilməyəcək**



**XALQ ÖZ ŞƏHİD ÖVLADLARINI UNUTMUR!**



10

# "Azərbaycan ilə Moldova dost və tərəfdaşdırlar"

*Azərbaycan Prezidenti İlham Əliyevin Moldovanın Baş naziri ilə təkbətək görüşü olub*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəsmi səfərə gələn Moldova Respublikasının Baş naziri Nataliya Qavrilitsa ilə təkbətək görüşü olub. Prezident İlham Əliyev Moldovanın Baş naziri Nataliya Qavrilitsanı qarşılayıb.***

Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, Azərbaycan ilə Moldova dost və tərəfdaşdırlar:

-Xoş gəlmisiniz, xanım Baş nazir. Sizi görməyimə çox şadam. Azərbaycana səfərə gəldiyinizə görə təşəkkür edirəm. Əminəm ki, səfər çox uğurlu olacaq və biz əməkdaşlığımızı gücləndirəcəyik. Bilirsiniz ki, Azərbaycan ilə Moldova dost və tərəfdaşdırlar. Əminəm ki, gələn illər ərzində əməkdaşlığımızın intensivləşdirilməsi yolları üzərində çalışacağıq, çünki belə yaxşı siyasi münasibətlərlə yanaşı, biz birmənalı olaraq, digər sektorlarda imkanları da araşdırmalıyıq. İnanıram ki, səfəriniz zamanı bu məsələlər ciddi şəkildə nəzərdən keçiriləcək və biz ticari əməkdaşlıq, iqtisadi işbirliyində daha çox canlanmanı görəcəyik. Əminəm ki, ikitərəfli ticarət səviyyəsini artırmaq üçün böyük potensial var.

Əlbəttə ki, hazırda qlobal gündəlikdə duran mühüm məsələlərdən biri enerji təhlükəsizliyidir. Biz nümayəndələrimiz vasitəsilə artıq bu məsələlər üzərində iş aparmışıq. Sözsüz ki, cari vəziyyəti və həmin sahələrdə əməkdaşlığın başlanması üçün hansı işlərin görüləcəyini də müzakirə edəcəyik. Bir çox digər sahələr də var və inanıram ki, ikitərəfli gündəliyimizin genişləndirilməsi üçün böyük imkanlar olacaqdır. Təbii ki, çox güclü siyasi münasibətləri nəzərə alsaq, onlar olmalıdır. Bir neçə gün əvvəl, xanım Prezidentlə Praqada görüşmək imkanı oldu. Bilirsiniz ki, bizim əvvəllər də görüşlərimiz, o cümlədən telefon danışıqlarımız olub. Bir sözlə, yaxşı işgüzar münasibətlər qurulub. Əminəm ki, siz də tərəfdaşlığımızı irəliyə doğru aparmaq məqsədilə azərbaycanlı həmkarınızla yaxşı işgüzar münasibətlər quracaqsınız. Bir daha Azərbaycana xoş gəlmisiniz.

Moldovanın Baş naziri Nataliya Qavrilitsa:

Cənab Prezident, Zati-aliləri, Sizinlə görüşmək və yüksələn xətlə inkişaf edən ikitərəfli münasibətlərimizi müzakirə etmək üçün bu fürsətə görə olduqca minnətdaram. Həqiqətən son ilyarım ərzində çoxsaylı səfərlər vasitəsilə əlaqələrimizdə xüsusi canlanmanın şahidi olmuşuq. Fürsətdən istifadə edərək, mən Prezident Sandunun Moldovaya səfər dəvətini bir daha Sizə çatdırıram. Biz, sözün əsl mənasında, müxtəlif səviyyələrdə çoxsaylı səfərlər etmişik. Şadam ki, həmin rəsmi səfərlər əsnasında biz ikitərəfli münasibətlərimizin 30 iliyini qeyd etmişik. Həmçinin hesab edirik ki, siyasi, iqtisadi və humanitar əlaqələr çox sıx olmuşdur və təkmilləşmişdir. Lakin onların potensialı daha böyükdür. Buna görə mən nəinki Baş nazir və müvafiq nazirlərlə, eləcə də işgüzar dairələrlə görüşməyi səmimiyyətlə arzulayıram. Son on ildə ilk dəfədir ki, Moldova-Azərbaycan iqtisadi komissiyasının iclası keçiriləcək.

Əminəm ki, enerji, iqtisadi, ticari və sosial sahələrdə əməkdaşlığımızı genişləndirmək üçün bizim çox məhsuldar müzakirələrimiz olacaq.

# ABŞ dövlət katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib

Oktyabrın 10-da ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı ABŞ dövlət katibi Antoni Blinken son dövrlərdə keçirilmiş görüşləri davamlı sülh müqaviləsinə doğru müsbət addımlar kimi səciyyələndirib. Bu xüsusda Cenevrədə xarici işlər nazirləri və Praqada liderlər səviyyəsində keçirilmiş görüşlərin əhəmiyyətini vurğulayıb. Dövlət katibi, həmçinin ABŞ Prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivanın təşəbbüsü ilə Ağ evdə Azərbaycan və Ermənistan nümayəndələri arasında keçirilmiş görüşün əhəmiyyətini qeyd edib. Azərbaycan tərəfindən 17 erməni əsirin geri qaytarılmasını müsbət addım kimi dəyərləndirən A.Blinken ABŞ-ın sərhədlərin delimitasiyası, nəqliyyat xətlərinin açılması və itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi, həmçinin digər humanitar məsələlərin həllində dəstək göstərməyə hazır olduğunu bildirib.





Dövlət katibi, eyni zamanda, konkret vaxt çərçivəsində sülh müqaviləsi üzrə danışıqların aparılmasının əhəmiyyətinə toxunub, Qarabağda yaşayan etnik erməni sakinlərin hüquqlarının və təhlükəsizliyinin təmin olunması üzrə müzakirələri təqdir edib. Antoni Blinken Azərbaycanda kütləvi məzarlığın aşkar olunduğunu qeyd edib, bununla əlaqədar dövlətimizin başçısına başsağlığı verib.

Öz növbəsində Prezident İlham Əliyev Cenevrədə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında keçirilmiş birinci ikitərəfli görüşü müsbət qiymətləndirib. Dövlətimizin başçısı, həmçinin Praqada keçirilmiş görüş nəticəsində qəbul edilmiş bəyanatın sülh prosesinə töhfə verəcəyinə ümidvar olduğunu ifadə edib. Prezident İlham Əliyev inandığını bildirib ki, əgər Ermənistan siyasi iradə nümayiş etdirərsə, bu ilin sonunadək sülh müqaviləsi imzalana bilər.

Dövlətimizin başçısı, eyni zamanda, həm Antoni Blinkenin, həm də Ceyk Sallivanın təşəbbüsü ilə Azərbaycanla Ermənistan nümayəndələri arasında keçirilmiş görüşlərə toxunub, bunu sülhə doğru atılmış addımlar kimi qiymətləndirib. Azərbaycan Prezidenti Birinci Qarabağ müharibəsindən sonra 3900-dən çox soydaşımızın itkin düşmüş şəxs hesab olunduğunu xatırladıb, Ermənistanın kütləvi məzarlıqların yeri barədə məlumat verməsinin vacibliyini qeyd edib. Prezident İlham Əliyev ABŞ dövlət katibindən öz imkanlarından istifadə edərək bu məsələnin həllinə nail olunmasına kömək göstərməsini xahiş edib. Dövlətimizin başçısı deyib ki, Beynəlxalq Qızıl Xaç Komitəsində şahidlərin ifadələri və digər məlumatlar əsasında bəzi kütləvi məzarlıqların yerləri haqqında müəyyən məlumatlar var. Görüşdə Azərbaycan-Ermənistan əlaqələrinin gələcək inkişafı ilə bağlı müzakirələr də aparılıb.

ÖZƏL + ANALİTİK

# Praqa görüşündə İlham Əliyev master-klassı!

## Artıq İrəvana dönən Ermənistanın baş naziri Nikol Paşinyan da açıq şəkildə etiraf edir ki, Qarabağ mövzusu gündəlikdən çıxarılıb

**Azərbaycanın güclü və öz mövqeyini qətiyyətlə müdafiə etməyi bacaran dövlət kimi Ermənistanın və tərəfdaşlarının formalaşdırdığı koalisiyaya qarşı açıq mübarizə aparmaqla öz mövqeyini müdafiə etdi və hər hansı güzəşt ideyasını yaxına belə buraxmadı!**

Oktyabrın 6-da Çex Respublikasının baş naziri Petr Fialanın və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəvəti ilə Çexiyanın paytaxtı Praqaya səfər edən Prezident İlham Əliyevin eyni zamanda, "Avropa siyasi birliyi" Zirvə Toplantısında iştirakı, ilk növbədə, dövlət başçımızın şəxsiyyətinə, nüfuzuna göstərilən hörmət, mühüm məsələlərin həllindəki mövqeyinin isə daim diqqət mərkəzində olmasına kifayət qədər dəlalət etməkdədir.



### Azərbaycanın iqtisadi qüdrəti və potensialı son dövrlərdə nəinki Avropa məkanına, eləcə də dünyanın bir sıra iqtisadi mərkəzlərinə doğru uğurla transfer olunmaqdadır

Sirr deyil ki, Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət faktoru özündə bir sıra mühüm məqamları ehtiva etməkdədir. Ümumiyyətlə, Azərbaycanın iqtisadi qüdrəti və potensialı son dövrlərdə nəinki Avropa məkanına, eləcə də dünyanın bir sıra iqtisadi mərkəzlərinə doğru uğurla transfer olunmaqdadır. Əbəs deyil ki, dünyada baş verən qlobal siyasi-iqtisadi kataklizmlərə baxmayaraq, ölkəmiz ən çətin sınaqlardan üzüağ çıxmış, eləcə də bu gün öz sözünü deməkdə davam etməkdədir. Xüsusilə, Avropa məkanında mövcud olan bir sıra enerji və s. problemlərin aradan qaldırılması üçün Azərbaycan əsas ölkə olaraq görülməkdədir. O cümlədən, Avropa qitəsinin enerji təhlükəsizliyində önəmli yer və rol alan rəsmi Bakı qarşıdakı illərdə daha geniş sferaları əhatə etmək üçün daha geniş platformalardan çıxış edir. Əlbəttə ki, sözügedən proseslərdən məharətlə istifadə edən və bu yöndə ardıcıl diplomatik zəfərlərə imza atan Prezident İlham Əliyev ölkəmizin milli maraqlarının müdafiəsi, beynəlxalq əlaqələrinin genişlənməsi və münasibətlərinin inkişafı istiqamətində məqsədyönlü siyasət həyata keçirməkdədir.

### Dördtərəfli görüşün nəticələri Azərbaycan diplomatiyasının növbəti qələbəsidir

44 günlük Vətən müharibəsindən sonra bu siyasət daha şaxələnmiş formada reallaşdırılır. Ermənistanın Cənubi Qafqazda sülhün bərqərar olmasına qarşı qoymağa cəhd etdiyi baryerlər isə qısa müddətdə sıradan çıxarılır. Həmin gerçəklik də, məhz Praqa dördtərəfli görüşündə özünü daha dəqiq və daha açıq şəkildə isbatlamış oldu. Artıq belə bir nəticə də hasil etmək olar ki, dördtərəfli görüşün nəticələri Azərbaycan diplomatiyasının növbəti qələbəsidir. Məsələn, əgər Ermənistan daha əvvəlki görüşlərdə Azərbaycanın ərazi bütövlüyünü tanımamaq üçün müxtəlif xarakterli manipulyasiyalara əl atırdısa, artıq indi belə manipulyasiyaların təsir gücünün olmaması Prezident İlham Əliyevin siyasi iradəsi və qətiyyəti sayəsində sübuta yetirildi. Rəsmi İrəvan çıxış yolunun olmadığını və belə davam edərsə daha ağır vəziyyətlərə düşə biləcəyini anlayaraq imzalanmış birgə Bəyanatda bunu öz imzası ilə təsdiq etdi.

Beləliklə, Azərbaycanın BMT və dünya birliyi tərəfindən tanınmış əraziləri üzərində öz suverenliyini tam bərpa etdi və Qarabağ məsələsi gündəmdən çıxdı. Eyni zamanda, artıq Ermənistana həmin istiqamətdə havadarlıq edən dairələr də anladılar ki, bu məsələ Azərbaycanın daxili işidir və heç bir halda ölkəmizə aid olan hər hansı bir məsələyə müdaxilə etməyə hüquqi və s. əsasları yoxdur. Yeri gəlmişkən, artıq İrəvana dönən Ermənistanın baş naziri Nikol Paşinyan da açıq şəkildə etiraf edir ki, Qarabağ mövzusu gündəlikdən çıxarılıb. Əlbəttə ki, dövlət başçımızın qətiyyəti həmçinin onu sübut etdi ki, Ermənistanın və havadarlarının formalaşdırdığı koalisiya da öz gücünü itirib və Azərbaycana qarşı hər hansı planları yalnız iflasa uğrayacaq. Artıq Bakı hər hansı güzəşt ideyasını yaxına belə buraxmır və öz şərtlərini diktə edir.

### Ermənistan Rusiyanın başı üzərindən başqa ölkələri öz ərazisinə gətirməyə hazırlaşır və Moskvanın təzyiqlərə məruz qalması dövründə belə bir xəyanətin cavabsız qalmayacağını da bəri başdan proqnozlaşdıra bilərik

Daha bir məqam isə Ermənistanın Rusiyaya münasibətdə aşkar xəyanətkarlıq mövqeyinin olmasıdır. Belə ki, Ermənistan hətta öz ərazisində Rusiyaya məxsus hərbi bazaların, habelə digər xarakterli müəssisələrin fəaliyyət göstərməsinə rəğmən, Aİ və Fransanın missiyasını öz ərazisinə dəvət etdi. Yəni bu faktın özü də sübut edir ki, İrəvan uzun illər onu ayaqda saxlayan müttəfiqinə arxadan zərbə endirməsi ilə nə qədər xəyanətkar xislətə mənsub olduğunu isbatlamış oldu. Daha dəqiq ifadə etsək faktiki olaraq Ermənistan Rusiyanın başı üzərindən başqa ölkələri öz ərazisinə gətirməyə hazırlaşır və Moskvanın təzyiqlərə məruz qalması dövründə belə bir xəyanətin cavabsız qalmayacağını da bəri başdan proqnozlaşdıra bilərik. Beləliklə, fakt budur ki, Praqa görüşü həm də Azərbaycan diplomatiyasının dünyanın siyasi arenasına göstərdiyi master-klass oldu. Bu möhtəşəm nümunəni qətiyyətli Prezidentimiz İlham Əliyev özünün güclü siyasi iradəsi ilə bir daha reallaşdırdı.

*Rövşən RƏSULOV*

# "Böyük Britaniya Azərbaycana ən çox sərmayə qoymuş ölkə və strateji tərəfdaşdır"

## Prezident İlham Əliyev Böyük Britaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

***Dünən Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fergus Auldun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Sonra dövlətimizin başçısı səfirlə söhbət edib. Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək bildirib ki, Böyük Britaniya Azərbaycana ən çox sərmayə qoymuş ölkə və strateji tərəfdaşdır:***



"Cənab səfir, sabahınız xeyir. Əvvəlcə, Azərbaycan dilini öyrəndiyinizə görə sizə təşəkkür edirəm. Bizim artıq görüşmək imkanımız olub və mən gördüm ki, siz, demək olar, Azərbaycan dilində səlis danışırsınız. Bu, olduqca gözlənilməz oldu, ancaq, eyni zamanda, bu, sizin bizim mədəniyyətimizə və dilimizə ehtiramınızı nümayiş etdirir. Bilirəm ki, səfir təyin edilməmişdən əvvəl siz bir neçə həftə Azərbaycanın bölgələrindən birində yaşamısınız. Bu, sizin yeni vəzifəyə təyin edilməyinizlə əlaqədar nümayiş etdirdiyiniz yüksək məsuliyyətin daha bir göstəricisidir. Əminəm ki, ölkəmizdə olduğunuz müddətdə siz Azərbaycanın daha yaxından tanımaq imkanı əldə edəcəksiniz və əməkdaşlığımızın gələcək inkişafına əhəmiyyətli töhfə verəcəksiniz, o cümlədən bizim ənənəvi əməkdaşlıq sahələrinə daxil olmayan, potensial tərəfdaşlığın yeni sahələrində."

Dövlətimizin başçısı qeyd edib ki, Böyük Britaniya Azərbaycana ən çox sərmayə qoymuş ölkə və strateji tərəfdaşdır. Buraya ənənəvi sahələr daxildir, ancaq əminəm ki, artıq yenilənən enerji növlərinə də sərmayə qoyulacaq: "Siz bilirsiniz ki, biz bu vacib istiqamətdə addım atmağa yaxınıq. Siz Azərbaycanda fəaliyyətinizə tamamilə fərqli mühitdə başlayırsınız. Çünki Qarabağ münaqişəsi başa çatdıqdan sonra regionda vəziyyət tamamilə dəyişib. Biz hesab edirik ki, bu, müsbət dinamikadan bəhrələnmək və regionumuzda davamlı sülhün bərqərar edilməsi üçün fürsətdir.

Bizim mövqeyimiz çox aydındır. Biz bunu vurğulamışıq və ictimai şəkildə bir neçə vacib təkliflər irəli sürmüşük ki, onlar davamlı sülh, sabitlik, təhlükəsizlik və normal qonşuluq münasibətlərinə gətirib çıxara bilər. Biz bu istiqamətdə Böyük Britaniya Hökumətinin dəstəyinə ümid edirik.

Bizə məlumdur ki, ölkənizin də regionla bağlı gündəliyi eynidir - sülh, sabitlik, təhlükəsizlik və əməkdaşlıq. Əminəm ki, qarşıdan gələn illərdə biz sizinlə, buradakı heyətinizlə və hökumət rəsmilərinizlə Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesinin sürətləndirilməsi istiqamətində əməkdaşlıq edəcəyik. Yəni, gündəliyimiz olduqca genişdir."

Görüşdə Azərbaycan dilində çıxış edən səfir Fergus Auld fikirlərini çatdırıb:

-Hörmətli cənab Prezident.

Əlahəzrət Kraliça II Elizabetin vəfatından sonra Azərbaycan xalqı adından başsağlığı vermək üçün səfirliyimizi ziyarət etdiyinizə görə Böyük Britaniya adından bir daha Sizə minnətdarlığımızı bildirmək istərdim.

Bu gün Gəncə şəhərinin məruz qaldığı dəhşətli raket hücumunun ikinci ildönümüdür. Həmin faciəli gündə həlak olanların ailələrinə başsağlığı vermək istərdim. Həmçinin iki il əvvəlki müharibədə və döyüşlər başa çatdıqdan sonra toqquşmalarda və mina partlayışları nəticəsində həyatını itirənlərin də yaxınlarına başsağlığımı çatdırmaq istərdim. Böyük Britaniya regionda sülhün mümkün qədər tez əldə olunmasını arzulayır. Hörmətli cənab Prezident, Britaniya səfirliyində görüşərkən Sizə dediyim kimi, mən ilk dəfə Azərbaycana Azərbaycan dili tələbəsi kimi gəlmişəm. Altı həftə ərzində Gəncə şəhərində yerli bir ailə ilə yaşadım, onların yeməklərini yedim və həyatlarını paylaşdım. Sizin mənə söylədiyiniz kimi, bu öyrənmə Sizin mədəniyyətinizə dərin hörmətimi və böyük ölkənizi anlamaq istəyimi göstərdi. Xoş qarşılanmağım və xalqınızın qonaqpərvərliyi məni valeh etdi. Çox şadam ki, Azərbaycana səfir və dost kimi qayıdıram. Mən ümid edirəm ki, təzə bardağın suyu sərin olar.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Siz danışdıqca öz-özümə düşündüm, görün nə qədər yol qət etmişik ki, Britaniya səfiri azərbaycanca danışır, Azərbaycan Prezidenti isə ingiliscə danışır və bir-birimizi anlayırıq.

# 11 oktyabr 1998-ci il: Xalqın arzularının təntənəsi günü

## GÜCLÜ XALQ, GÜCLÜ DÖVLƏT, GÜCLÜ LİDER VƏHDƏTİ



**Lider o şəxsiyyətdir ki, ona etimad göstərmiş xalqın maraqlarını bütün imkanları ilə müdafiə edir, reallaşdırır, cəmiyyətin enerjisinin səfərbər edilməsilə insanların taleyində əhəmiyyətli faktora çevrilir. Bu cür liderlərin mövcudluğu isə xalqların perspektivinin qarant altında olmasına və dinamik inkişaf yoluna çıxmasına əsas yaradır. 29 il öncə oktyabr ayının 3-də ümummilli lider Heydər Əliyev ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsi və 1998-ci il oktyabrın 11-də isə keçirilmiş seçkilərdə Ulu öndər Heydər Əliyev yenidən xalqın etimadını qazanması bu günün reallığıdır.**

Əgər 1993-cü il seçkiləri Azərbaycan dövlətçiliyinin ciddi sınaq mərhələsi idisə, 1998-ci il seçkiləri artıq formalaşan dövlətimizin imtahanı sayılırdı. Çünki tarixi təcrübə göstərir ki, hər bir dövlətin mütərəqqi inkişafı müxtəlif səbəblərlə yanaşı, həm də demokratik seçkilərdən asılıdır. Seçkilər idarəetmənin mərkəzi institutu, insanların cəmiyyətin siyasi-ictimai həyatında iştirakının ən kütləvi formasıdır. Xalq dövlətin idarə edilməsində iştirak hüquqlarını əsas etibarilə seçkilər vasitəsilə reallaşdırır və bu zaman hakimiyyət də idarəedilənlərin razılığı ilə legitimliyini təmin edir. Bu razılığı hökumətin səlahiyyətinə çevirən ən başlıca mexanizm isə, ilk növbədə, azad, ədalətli və obyektiv seçkilərin təşkilidir. Demokratik seçkilərin əsas şərti hesabat vermək məsuliyyətindən əlavə, həm də aşkarlıq, şəffaflıq, obyektivlikdir. Seçkilərin bu meyarlar əsasında keçirilməsi siyasi mədəniyyətin, hüquq düşüncəsi və mədəniyyətinin formalaşması, xalqın ümumi iradəsinin milli maraqlar ətrafında birləşdirilməsi kimi çox mühüm amillərə meydan açır. Azərbaycan xalqı da ötən əsrin sonlarına doğru dövlət müstəqilliyinə qovuşduqdan sonra hüquqi, demokratik, dünyəvi inkişaf kursunu seçmiş, dünyanın sivil toplumu olaraq güvəndiyi, öz taleyini etibar etdiyi legitim siyasi hakimiyyəti məhz demokratik, azad, şəffaf seçkilər yolu ilə - müstəqil, azad iradə əsasında seçmək əzmini nümayiş etdirmişdir. 1991-ci ilin 18 oktyabrında qəbul olunmuş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nda xalqın azad, demokratik seçki yolu ilə hakimiyyəti formalaşdırmaq hüququ bütün dünyaya bəyan olunmuşdur.

### Demokratik seçkilər hüquqi dövlət quruculuğunun əsas göstəricilərindən biridir

Konstitusiya Aktının 1991-ci ildə qəbuluna baxmayaraq Azərbaycanda demokratik seçkilərin keçirilməsi 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün oldu. Məhz ulu öndərin sayəsində demokratik seçki mühitinin formalaşdırılması Azərbaycanda hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən birinə çevrildi. Heydər Əliyevin 1993-cü ilin oktyabrında prezident seçilməsi isə xalqın öz rəhbərinə sonsuz məhəbbətinin ifadəsi olmaqla bərabər, ölkədə demokratiyanın inkişaf etdirilməsinin, vətəndaş cəmiyyəti quruculuğunun, o cümlədən seçki sisteminin ildən-ilə təkmilləşdirilməsinin əsasını qoydu. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq ümumxalq səsverməsi yolu ilə 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizdə demokratik standartlara cavab verən azad, ədalətli, obyektiv seçkilərin keçirilməsi üçün əsas prioritetləri müəyyənləşdirdi. Konstitusiyanın 4-cü maddəsinə əsasən, xalqın seçdiyi səlahiyyətli nümayəndələrdən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur. Əsas Qanunun 56-cı maddəsinə əsasən, hər bir Azərbaycan vətəndaşının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ var. Məhz həyata keçirilən islahatlar nəticəsində "Xalq - Heydər, Heydər - xalq" ifadəsi Prezident və xalq birliyinin möhtəşəm formuluna çevrilmişdi. Beynəlxalq aləm də əmin idi ki, 1993-cü ilin yayında Azərbaycan xalqını qardaş qırğınından, dövləti isə məhv olmaqdan xilas etmiş Heydər Əliyev növbəti dəfə Prezident seçiləcək. Eyni zamanda, özünü Heydər Əliyevə siyasi rəqib kimi göstərmək istəyən müxalifət düşərgəsinin təmsilçiləri də növbəti seçkidə də məğlub olacaqlarını anlayırdılar.

### Məhz Azərbaycan xalqı 1993-cü ildə olduğu kimi, 1998-ci ildə də düzgün seçim etdi

Bu, elə bir çətin dövr idi ki, həmin dövrdə bəzi qüvvələr ulu öndərin əleyhinə təbliğat aparsalar da, xalq öz seçimindən dönmədi. 1988-1993-cü illərin faciə və gərginliklərini yaşamış hər bir kəs ayıq olmaqla, taleyüklü seçim məqamında qətiyyət və siyasi iradə nümayiş etdirməli idi və Azərbaycan xalqı 1993-cü ildə olduğu kimi, 1998-ci ildə də düzgün seçim etdi. Əslində, xalqın başqa seçimi ola da bilməzdi, çünki 1993-cü ilin yayına - Milli Qurtuluşa qədər ölkədə baş verənlər heç kəsin yadından çıxmamışdı. Çünki Qurtuluşdan sonra baş verənlər də hamının gözü qabağında idi. Ən başlıcası, ölkədə daxili sabitlik yaranmış, çörək qıtlığı, ərzaq çatışmazlığı aradan qaldırılmış, insanların bir-birinə və dövlətə olan inamı bərpa edilmişdi. Daha sonra isə ölkəmizə beynəlxalq aləmdə yeni nüfuz qazandıran qanunların qəbul edilməsi, köklü islahatlara start verilmişdi. Nəticədə, Heydər Əliyevin birinci prezidentliyi dövründə Azərbaycana 10 milyardlarla dollar gəlir gətirəcək "Əsrin müqaviləsi" imzalanmış, bütün beynəlxalq təşkilatlara inteqrasiyamız təmin edilmiş, dünyanın aparıcı dövlətləri ilə münasibətlərimiz isə tərəfdaşlıq və strateji müttəfiqlik səviyyəsinə çatdırılmışdı. Müstəqillik dövründə ilk dəfə iqtisadi dirçəlişə nail olmağımız da məhz Heydər Əliyevin birinci prezidentliyi dövrünə - 1996-cı ilə təsadüf edirdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə - yəni, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi şərti ilə həllinin zəruriliyi də beynəlxalq təşkilatlar səviyyəsində ilk dəfə 1996-cı ildə etiraf edilmişdi. Bir sözlə, 1993-cü ilin oktyabrından 1998-ci ilin oktyabrına qədər Azərbaycanda həyata keçirilən tədbirlər belə deməyə əsas verirdi ki, oktyabrın 11-də Heydər Əliyevin qələbəsi şəksizdir. Heydər Əliyevin ikinci dəfə seçkilərdə bu cür böyük üstünlüklə qələbə qazanması qədirbilən xalqımızın Ulu Öndərə, onun möhkəm siyasi iradəsinə və yüksək nüfuzuna, idarəçilik istedadına olan dərin inamından qaynaqlanırdı.

### Ulu öndərin ikinci prezidentlik dövründə qazanılmış iqtisadi nailiyyətlər: rəqəmlərlə

Ulu öndərin ikinci prezidentlik dövründə qazanılmış iqtisadi nailiyyətlər diqqəti cəlb edir. Belə ki, 1997-2002-ci illərdə sənaye məhsulu istehsalı 23,6 faiz, yaxud orta hesabla ildə 3,6 faiz artmışdı. Hasilat sənayesi ilə yanaşı, qeyri-neft sektoru - emal sənayesi də inkişaf edirdi. Göstərilən müddətdə emal sənayesi sahələrində məhsul istehsalı 24 faiz, o cümlədən, yeyinti sənayesində 22 faiz, taxta məmulatı istehsalında 3,5 dəfə, metallurgiya sənayesində 2,5 dəfə artmışdı. Sənayenin inkişafı ilə yanaşı, ümummilli lider respublikada kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirirdi. Məhz bu diqqətin nəticəsində respublikada 40-dan çox hüquqi-normativ sənəd qəbul edildi və onların əsasında aparılan islahatların yekunu olaraq 872 min kəndli ailəsinə 1372,8 min hektar torpaq sahəsi, 63 mindən artıq maşın və traktor, 4 min qaramal tövləsi, 2300 qoyun yatağı, 450 min baş qaramal, 1 milyon 900 başdan artıq davar verildi, ölkədə 2600-dən çox kəndli-fermer təsərrüfatı yarandı. 1997-2002-ci illərdə istehsal edilən kənd təsərrüfatı məhsullarının 99,01 faizi məhz onların payına düşürdü. Bu məhsulların satışında qiymətlər tam sabitləşmiş, idxal-ixrac əməliyyatlarında bütün maneələr aradan qaldırılmışdı. Eyni zamanda, 1990-cı ildə 20 Yanvar faciəsinin ertəsi günü Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqımıza başsağlığı verməsi, onunla birgə olduğunu bəyan etməsi dahi liderə olan inamı daha da artırmışdı. Həyatının mənasını xalqına və dövlətinə xidmətdə görən Ulu Öndərin müstəqil gənc respublikamıza rəhbərlik etdiyi dövrdə gördüyü əvəzsiz işlər Azərbaycanı çox qısa müddətdə beynəlxalq arenada böyük nüfuza və söz sahibinə malik bir ölkəyə çevirdi. Prezident Heydər Əliyev 1993-cü il oktyabrın 10-da andiçmə mərasimindəki çıxışında bu barədə danışaraq deyirdi: "Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə ediləndən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir". Prezident Heydər Əliyev nitqində qətiyyətlə bəyan etdi ki, şəhidlərimizin qanı yerdə qalmayacaq. Azərbaycan xalqı öz qamətini düzəldəcək, ayağa qalxacaq, gücünü birləşdirəcək, müasir ordusunu yaradacaq və müstəqil dövlətini, öz ərazisini bundan sonra göz bəbəyi kimi qoruyacaq. Bir müddət sonra Ermənistan-Azərbaycan münaqişəsində atəşkəsin əldə edilməsi ordu quruculuğunda köklü islahatların aparılması üçün əlverişli imkan yaratdı. Çox keçmədən ölkəmizdə ordu quruculuğu sahəsində ciddi addımlar atıldı. Vahid komandanlığa tabe olan nizami ordu yaradıldı, Silahlı Qüvvələrimizin maddi-texniki bazası gücləndirildi, ordumuz müasir silah və sursatla təmin olundu.

### "Hər bir azərbaycanlının Prezidentiyəm"

Və bu gün Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları Onun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda çox böyük sürətlə məktəblər, xəstəxanalar və sair obyektlər tikilir, insanları narahat edən əsas məsələlər öz həllini tapır. Ölkəmizin bütün sahələrində gərgin iş gedir və bu işlər Azərbaycanın xoşbəxt gələcəyinə xidmət edir. Azərbaycan yaxın zamanda çox qüdrətli bir ölkəyə çevriləcək, vətəndaşlarımız güclü, azad, sivil və gözəl ölkədə yaşamaqları ilə fəxr edəcəklər.Hər bir azərbaycanlı fərəh hissi keçirir ki, dövlətimizin idarəçilik sükanı başında Milli Öndər Heydər Əliyevin yetirməsi, Onun yaratdığı siyasi məktəbin davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyev durur. Hər bir azərbaycanlının Prezidenti olacağını qətiyyətlə bildirən və ötən müddət ərzində sözünün, vədinin sahibi olduğunu əməli işi, genişmiqyaslı fəaliyyəti ilə bir daha sübut edən Cənab İlham Əliyevlə xalqımız yeni-yeni müvəffəqiyyətlərə, uğurlara nail olacaq, dövlətçiliyimizin inkişafı və möhkəmləndirilməsi istiqamətində mühüm göstəricilər əldə edəcəkdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin apardığı daxili və xarici siyasət, bir daha sübut edir ki, Ulu Öndərin qətiyyətli səyləri nəticəsində, müstəqilliyi tam təmin olunan dövlətimiz durmadan inkişaf edir, çiçəklənir və qüdrətli dövlətə çevrilir. Dövlət müstəqilliyimiz daim güclənir və Azərbaycan Cənubi Qafqazın lider ölkəsi olmaqla, dünya birliyində fəal mövqe qazanır. Azərbaycanın kosmos ölkəsi olması dövlətimizin apardığı siyasətin bilik iqtisadiyyatına əsaslanan və gələcəyə hesablanmış uğurlu strateji siyasət olduğuna bariz nümunədir. Belə praqmatik və uğurlu siyasətin müəllifi isə Heydər Əliyev məktəbinin layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevdir.

Bir sözlə, ulu öndər Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, ümummilli lider və xalq məhəbbətini qazanan ulu öndər kimi qalıb. Və ümummilli lider Heydər Əliyev təkcə Azərbaycanın deyil, həm də dünyanın nadir və bənzərsiz şəxsiyyətlərindən biridir. Onun əziz xatirəsi hər bir azərbaycanlının, hər bir soydaşımızın qəlbində əbədi yaşayır və yaşayacaq.

**RƏFİQƏ HÜSEYNOVA**

# "Ermənilərə ilk cəzanı elə 44 gün içində Azərbaycan ordusu vermiş oldu"



**"Gəncə terroruna görə dünya tərəfindən ermənilərin qınaq obyektinə gətirilməsinə əmin olub-olmamağımız üçün təklif edərdim ki, tarixə nəzər yetirək. Hətta, çox uzaq tarixə deyil, elə son 30 ildə ermənilərin bizim başımıza gətirdikləri hadisələrə, o cümlədən Qaradağlı faciəsinə və Xocalı soyqırımına görə mənfur qonşularımıza qarşı dünyanın tutduğu mövqeyə diqqət etsək, Gəncə terroru ilə bağlı məsələyə müəyyən mənada işıq tutmaq olar". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Elçin Abdullayev bildirib.**

Onun sözlərinə görə, nə Qaradağlı faciəsinə görə, nə Xocalı soyqırımına görə, nə də başımıza gətirdikləri digər oyunlara görə dünya gücləri tərəfindən ermənilər nəinki cəzalandı, heç onlara gözün üstə qaşın var kəlməsi belə deyilmədi: "Məhz bu cür münasibətin nəticəsi idi ki, 44 günlük savaş boyunca Ermənistan dövləti azğınlaşaraq tam müharibə qanunlarına zidd addımlar atıb, mülki insanlarımızın yaşadığı şəhərlərə o cümlədən Gəncə və Tərtərə dəfələrlə raket zərbələri endirdilər. Yəni bu o deməkdir ki, 2020-ci il 4 oktyabrında baş verən Gəncə terroru, Qaradağlı və Xocalı soqrımına görə cəzasızlıqdan doğan hadisə idi. Məhz bu cür ikili standartlar dünyamızı dalana soxdu. Artıq dünyanın mövcud sistemi çöküb. Təsəvvür edin, Birləşmiş Millətlər Təşkilatı kimi zamanında nüfuz olan bir qurumun imici ayaqlar altında sürünür. Hansı ki, ermənilər üzərində məlum 4 qətnaməni belə icra etmək gücündə olmayan bir təşkilatdan, BMT-dən söhbət gedir. Sonda nə oldu 30 il BMT-in icra emədiyi qətnamələri Azərbaycan dövlət olaraq öz üzərinə götürdü və cəmi 44 gün ərzində erməniləri işğal etdikləri torpaqlarımızdan çıxartdı. Beləliklə ermənilərə ilk cəzanı elə 44 gün içində Azərbaycan ordusu vermiş oldu.

Əminəm ki, son illər daha da nüfuzunu artıran Azərbaycan dövləti, hərb meydanında qazandığı qalibiyyətinin davamını diplomatik masadada gətirəcək. Beləliklə Ermənistanın cəzasını bu dəfə də siyasət meydanında verməklə hüquqi müstəviyə keçirə biləcək. Çünki, hal-hazırda beynəlxalq hüququn işlək hala gətirilməsi, mütləq güc və qüvvət amili mühüm rol oynayır. Güclü olmalısan ki, haqqını və hüququnu təmin edə biləsən. Azərbaycan isə həm regionda, həm də dünyada baş verən hadisələrin fonunda beynəlxalq arenada nüfuz dairəsini genişləndirməkdədir. Odur ki, Azərbaycan hər ötən gün qüdrətini artırdıqca, məndə ermənilərin bizə yaşatdıqları facilərə, o cümlədən də Gəncə terroruna görə cavab verəcəkləri ilə bağlı əminlik artır. Bir sözlə, 44 gündə olduğu kimi, bu məsələdə də öz göbəyimizi özümüz kəsməliyik deyə düşünürəm".

***Abutel İlhamqızı***

# "Audiovizual media mühitində universal jurnalist" mövzusunda təlimlərə başlanılıb

**Oktyabrın 10-da Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə telejurnalistlər üçün "Audiovizual media mühitində universal jurnalist" mövzusunda təlimlərə başlanılıb.**



SİA-nın verdiyi məlumata görə, təlimin açılış mərasimində çıxış edən ADA Universitetinin prorektoru Fariz İsmayılzadə Medianın İnkişafı Agentliyi ilə əməkdaşlıq təcrübəsinin uğurunu məmnunluqla qeyd edib. Vurğulayıb ki, bu təlimlər media sahəsində yeni trendin başlanğıcına, keyfiyyətli kontent yaradılmasına, jurnalistlərin peşəkar inkişafına töhfə verəcək.



Sonra Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov televiziya mühitində çalışan jurnalistlərin yaradıcı-innovativ potensialını stimullaşdırmaq, xarici təcrübəyə əsaslanan nəzəri biliklərini artırmaq və yerli mediada tətbiqini reallaşdırmaq, bu istiqamətdə təcrübə mübadiləsini həyata keçirmək üçün xarici mütəxəssislərin cəlb edilməsiylə təlimlərin keçirilməsinin əhəmiyyətindən bəhs edib. Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev televiziya sahəsində jurnalistlərin ixtisaslaşmasının və belə təlimlərin keçirilməsinin vacibliyini vurğulayıb.

ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyeva belə təlimlərin media nümayəndələrinin biliklərinin artırılmasında və medianın ictimaiyyətə dolğun informasiya çatdırmasında əhəmiyyətini bildirib, ADA Universitetinin İxtisasartırma Proqramlarının rəhbəri Nərgiz İsmayılova isə medianın inkişafının cəmiyyətimizə müsbət təsir göstərməsindən və bu istiqamətdə jurnalistlərin təcrübələrinin artırılmasının əhəmiyyətindən danışıb. Təlimlərdə "Əl-Cəzirə" Media Şəbəkəsinin telejurnalisti Mohamed Elatyeb "mobil jurnalistika", "video jurnalistika", "televiziya jurnalistikası" və s. mövzularda çıxış edəcək. Oktyabrın 13-nə qədər davam edəcək təlimlərin məqsədi televiziyada xəbər istehsalının təkmilləşdirilməsi, rəqəmsallaşmanın stimullaşdırılması, audiovizual istiqamətdə xarici bilik və təcrübələrin tətbiqinin genişləndirilməsi və daha keyfiyyətli məzmunun yaradılmasına nail olmaqdır.

# Norveç nəşri ermənilərin Gəncəyə raket hücumlarından yazıb

**Norveç nəşri ermənilərin Gəncədə mülki əhalini hədəf alan raket hücumlarından yazıb. Belə ki, nyheteridag.news xəbər saytında dərc olunan məqalədə bildirilir ki, 2020-ci ildə Vətən müharibəsi zamanı Azərbaycanın Gəncə şəhərinə ilk ölümcül raket hücumundan iki il ötür.**

Məqalədə deyilir ki, 2020-ci il oktyabrın 4-də yerli vaxtla saat 10:00-da Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə istiqamətində ballistik raket atılıb, nəticədə 1 mülki şəxs həlak olub, 30 nəfər yaralanıb. Ermənistan hərbi rəhbərliyi hücumu təkzib etsə də, Azərbaycanın Qarabağ bölgəsində qeyri-qanuni məskunlaşmış, İrəvan tərəfindən dəstəklənən separatçılar hücuma görə məsuliyyəti öz üzərinə götürərək, hərbi obyektlərin və Gəncədəki beynəlxalq hava limanının atəşə tutulduğunu vurğulayıblar. Bununla belə, Azərbaycan tərəfi hücum yerində hərbi obyektlərin olmaması ilə bağlı faktları təqdim edib.

İki il əvvəl baş verən hadisələrdən söz açılan məqalədə qeyd olunur ki, Ermənistan və Azərbaycan otuz ilə yaxındır dünyanın ən uzun sürən münaqişələrindən birinin tərəfləri olublar. 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra Ermənistan Azərbaycana qarşı genişmiqyaslı hərbi kampaniyaya başlayıb, nəticədə Cənubi Qafqaz regionunda ən uzunmüddətli və ən qanlı müharibənin başlamasına səbəb olub. Qanlı müharibənin birinci fazası, 1994-cü ildə atəşkəsin əldə olunması və Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizini işğal etməsi ilə dayanıb. Ermənistanın həyata keçirdiyi vəhşi etnik təmizləmə siyasəti səbəbindən 30 mindən çox azərbaycanlı qətlə yetirilib, bir milyon insan öz yurd-yuvasından didərgin salınıb.

İşğal olunmuş Azərbaycan torpaqlarında yerləşən Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də Azərbaycandakı hərbi mövqeləri və yaşayış məntəqələrini atəşə tutmasından sonra iki ölkə arasında uzunmüddətli münaqişə yenidən alovlanıb. 44 gün davam edən əks-hücum əməliyyatları nəticəsində Azərbaycan Ordusu 300-dən çox yaşayış məntəqəsini, o cümlədən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərlərini 30 ilə yaxın davam edən erməni işğalından azad edib. 2020-ci il noyabrın 10-da Ermənistan, Azərbaycan və Rusiya arasında üçtərəfli Bəyanatın imzalanması ilə müharibə başa çatıb. Bəyanatda Ermənistan işğal etdiyi Ağdam, Kəlbəcər və Laçın rayonlarını Azərbaycana qaytarmağı öhdəsinə götürüb.


Nyheter Idag

Saknar du livsenergi?
Längtar du efter en mening i tillvaron? Vitalisera AB
Öppna

Nyheter

To år har gått siden armensk missilangrep på Ganja-byen i Aserbajdsjan

Jonas Larsen · oktober 4, 2022

To år har gått siden det dødelige missilangrepet på Ganja-byen i Aserbajdsjan under den andre Karabakh-krigen i 2020.

Den 4. oktober 2020, klokken 10:00 lokal tid, skjøt det armenske militæret et ballistisk missil på Ganja, ...

Azərbaycan şəhərlərinə hücum məsələsinə qayıdan müəllif qeyd edir ki, 2020-ci il müharibəsi zamanı Gəncə dəfələrlə raket hücumlarına məruz qalıb. Oktyabrın 4-də baş verən birinci hadisədən sonra Ermənistan hərbçiləri oktyabrın 5-də, 8-də, 10-da və 17-də Azərbaycanın ikinci ən böyük şəhərinə yenidən hücum edib. Hücumlarda həlak olan mülki şəxslərin sayı 32 olub, ən azı 125 nəfər yaralanıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) Gəncəyə hücumlarda "Smerç" idarə olunmayan artilleriya raketlərindən və "Skad-B" ballistik raketlərindən istifadə olunduğunu təsdiqləyib.

Baş verənlərə bir çox beynəlxalq təşkilat tərəfindən də qiymət verildiyi qeyd olunub. Belə ki, Human Rights Watch təşkilatının Avropa Bölgəsi və Mərkəzi Asiya Ofisinin rəhbəri Hyu Uilyamsonun sözlərinə görə, erməni qüvvələri dəfələrlə müxtəlif növ silahlardan, o cümlədən idarə olunmayan raketlərdən Azərbaycan şəhərlərini atəşə tutub. Altı həftəlik müharibədə dəfələrlə təkrarlanan bu hücumlar çox sayda mülki şəxsin həyatına son qoyub".

Məqalədə vurğulanır ki, Azərbaycan hökuməti də bu hücumları Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi kəskin şəkildə pisləyib. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev hadisəni Ermənistanın "dövlət terroru aktı" adlandırıb və beynəlxalq ictimaiyyəti baş verənləri pisləməyə çağırıb.

Türkiyə hökuməti də Ermənistanı hərbi cinayət törətməkdə ittiham edərək, Gəncəyə hücumları araşdıran ilk ölkə oldu. Qətər, İsveçrə, Malayziya və Böyük Britaniyanın Azərbaycandakı səfirləri üçüncü raket hücumu nəticəsində həlak olanların ailələrinə təəssüf hissi ilə başsağlığı veriblər. Avropa İttifaqı da dördüncü hücumu pisləyib və BMT-nin Baş katibi Antonio Quterreş baş verənləri qəbuledilməz adlandırıb.

# Yaş senzinin BAYRAQDARI! QÜRUR VƏ MÜBARİZLİK TARİXİ

## Həyatının böyük hissəsini Ulu Öndər Heydər Əliyev ideyalarının həyata keçirilməsi uğrunda həsr edən vətənpərvərlik təcəssümü!



Bir şəxsiyyətin cəmiyyətdə tanınması onun həyat kredosu və əqidəsi ilə bağlıdır. Belə ki, insan uşaqlığından ailəsində, yaxın mühitində gördüyünü alt şüuruna həkk edir, gələcək həyatını da məhz bu şüur üzərində qurur, formalaşdırır. Bu cür insanlar əsl əqidəyə sahib olan şəxsiyyət kimi cəmiyyət arasında özünəməxsus yerlərdən birini tutur. Məhz belə bir insandan - ölkəsi, xalqı, Vətəni uğrunda bütün ömrünü fədakarlıqlara həsr edən Arif Rüstəmovdan bəhs edəcəyik...

Ötən əsrin təlatümlü 90-cı illərində çətin, taleyüklü dövründə Azərbaycanın nicatını, xilas yolunu haqlı olaraq Ulu Öndər, xalqımızın Ümummilli Lideri Heydər Əliyev dühasının böyük siyasətə qayıdışında - yenidən hakimiyyət zirvəsinə yüksəlməsində görən və məşhur "91-lər"in sırasında adı daim ehtiramla çəkilən Arif Rüstəmov ləyaqətli və şərəfli ömür yolu, vətənpərvər ictimai-siyasi fəaliyyəti ilə onu tanıyanların qəlbində silinməz iz qoyub.

## Ulu Öndər Heydər Əliyev məhz bu cür əqidəli insanlar haqqında demişdir ki, cəsarət və sədaqət sonradan qazana bilinən keyfiyyət deyil, bu, insanın qanından gəlir!



Xalq qəzeti

ХАЛГ дөрд ил әввәл оз хиласкарына сәс верди

Дөрд ил: сабитлијин, дөвләт нүфузунун бәрпасы дөвру

Belə bir şəraitdə xalqın aparıcı ziyalıları haqlı olaraq çıxış yolunu Ulu Öndər Heydər Əliyevin fəal siyasi səhnəyə qayıtmasında görürdülər. Arif müəllim Yeni Azərbaycan Partiyasının yaradılmasında ilk təşəbbüskarlardan biri kimi önə çıxanlardan və sinə gərənlərdəndir.

O, 1989-90-cı illərin əvvəllərində "Xalq qəzeti" və "SƏS" qəzeti kimi mətbu orqanlarda - hansı ki, o zamanlar Heydər Əliyevlə bağlı çıxış etmək ölkədə qadağan olunmuşdu, açıq məqalələrlə fikirlərini yazırdı. Arif Rüstəmov eyni zamanda, Ulu öndərlə teleqramlaşırdı.

Beləliklə, 1990-1993-cü illərdə Ulu Öndər Heydər Əliyevin ətrafında sıx birləşməklə AXC-Müsavat cütlüyünün səriştəsizliyini ifşa edən bu şəxsiyyət həyatının ən böyük hissəsini Azərbaycanın bütövlüyü uğrunda mübarizəyə həsr etdi. Xalq Heydər Əliyevin hakimiyyətə gələrək ölkəni bu ağır bəladan qurtarmağa səsləyirdi.



№ 18 (47) 30 АПРЕЛ 1993-чү ИЛ

МИТИНГЧИЛӘР НӘ ИСТӘЈИР?

АРИФ РУСТӘМОВ: Һејдәр Әлијевин республикаја биринчи шәхс кими кәлмәси нәинки Гарабағ мүһарибәсинә, һәтта дахили һәрҹ-мәрҹлијә сон гојарды. Бу мәним гәнаәтимдир.

Lakin 121-ci maddə ilə yaş senzini tətbiq etmək istəyən mənfur qüvvələr hər vəchlə onun qarşısını almağa cəhd edirdilər. Buna qarşı etiraz edənlər isə həbs edilir, təqib və təzyiqlərə məruz qalırdılar.

Ulu Öndər məhz bu cür əqidəli insanlar haqqında demişdir ki, cəsarət və sədaqət sonradan qazana bilinən keyfiyyət deyil, bu, insanın qanından gəlir.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev çıxışlarında bu barədə vurğulayıb ki, Ulu Öndərin gələcək fəaliyyətini əngəlləmək üçün o vaxtkı partokrat hakimiyyət yaş senzi kimi çox cəfəng bir qaydanı tətbiq etmişdir ki, 65 yaşdan sonra prezident ola bilməz. Lakin mübariz insanlar etiraz aksiyaları təşkil etməklə heç kimdən qorxmadan, hətta repressiya təhlükəsinin olmasına baxmadan öz əqidələrini sona qədər müdafiə etdilər.





## Arif Rüstəmovun xatirələrindən: "Ali Sovetin qarşısında keçirilən mitinqlərdə oğlanlarımla birgə iştirak etmişik, süni qadağanın ləğv olunmasını tələb etmişik"



"Dahi Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinə qarşı qoyulan qadağanın - 121-ci maddənin ləğv olunması tələbi ilə Ali Sovetin qarşısında keçirilən mitinqlərdə oğlanlarımla birgə iştirak etmişik, süni qadağanın ləğv olunmasını tələb etmişik.

Mitinqdə azyaşlı övladlarım Dahi Öndərimiz Heydər Əliyevin portretlərini başları üzərinə qaldırıb "Azərbaycanın xilası Heydər babanın hakimiyyətə gəlməsidir", "Heydər baba, biz səni dəstəkləyirik" və digər bu kimi şüararla çıxış etdilər. Bu gün həmin uşaqlar daxili işlər orqanlarında Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu, Prezident İlham Əliyevin inkişaf etdirdiyi Azərbaycan dövlətinə şərəflə və qürurla xidmət edirlər" (Mənbə: "Səs" İnformasiya Agentliyi, 27.04.2021-ci il - "35 il kölgədə qalan sirlər" sərlöhvəli məqalədən)

## Arif müəllimin ömür-gün yoldaşı Havva Həsənovanın xatirələrindən: "Arif müəllim 121-ci maddəni əks etdirən yaş senzinin ləğv edilməsi, habelə bu tələblərlə keçirilən mitinqlərin əsas təşkilatçılarından biridir"

Məqaləni hazırlayarkən Arif müəllimin ömür-gün yoldaşı Havva Həsənova ilə də söhbətləşdik, onun da fikirlərini, düşüncələrini dəyərli oxucularımızla bölüşmək qərarını verdik. O, bizimlə söhbətində deyir ki, YAP-ın yaradılmasında ciddi təşviş və qorxu keçirən AXC-Müsavat iqtidarı 4 oktyabrda Naxçıvanda dövlət çevrilişinə cəhd etdilər. SİTAT: "Arif müəllim həmin ərəfələrdə çox gərgin və məsuliyyətli idi, xüsusilə Ulu Öndər Heydər Əliyevə olan təhdidlərin baş verməməsi üçün gecə və gündüz fəaliyyət göstərir, siyasi həmfikirləri ilə yuxusuz gecələr keçirirdi. Çünki xain qüvvələr Naxçıvanda hakimiyyəti zəbt edib, Heydər Əliyev ətrafında birləşən insanları qorxutmaq, mübarizələrindən çəkindirmək istəyirdilər. Məhz bu kimi mübariz, əqidəli insanların davamlı səyləri nəticəsində xain qüvvələrin istəkləri baş tutmadı. Onlar Ulu Öndərin ətrafında daha da sıx birləşərək, təhdid və təzyiqlərin qarşısını almağa nail oldular".

O, sözlərini belə davam etdirib: "Həyat yoldaşım Birinci Qarabağ veteranı Arif Rüstəmov Yeni Azərbaycan Partiyasının yaradılması təşəbbüsünə və bu barədə təbliğat aparanların sırasında ilk mübarizlərdən biridir. O, 1990-1993-cü illərdə hakimiyyətdə olan bir qrup AXC-Müsavat cütlüyünün səriştəsizliyi, ölkəni idarə edə bilməməsi səbəbindən, Azərbaycan parçalanmaq təhlükəsi ilə üz-üzə qaldığı bir dövrdə öz qəlbinin səsi ilə Ulu Öndər Heydər Əliyevin xilaskar missiyasına ümid bəsləyən şəxslərdəndir. Eyni zamanda, Arif müəllim 121-ci maddəni əks etdirən yaş senzinin ləğv edilməsi, habelə bu tələblərlə keçirilən mitinqlərin əsas təşkilatçılarından biridir. O, dəfələrlə Murtuz Ələsgərov, Səfiyar Musayev, Misirxan Vəliyev, mərhum general Rasim Musayevlə birlikdə Ulu Öndər Heydər Əliyevin müdafiəsi ilə bağlı keçirilən mitinqlərdə o zamankı hakimiyyətin qəzəbinə tuş gəlmişdir. Bir neçə dəfə onu polis bölməsinə apararaq 10-15 gün azadlıqdan məhrum ediblər. Ancaq bu kimi təzyiqlər onu haqq və ədalət uğrunda apardığı mübarizədən çəkindirmədi. Əksinə, daha böyük fəallıqla Ulu Öndərimiz Heydər Əliyevin Naxçıvandan Bakıya gələrək Azərbaycanın düşdüyü ağır problemlərdən xaos və anarxiyadan xilas etmək işində dəstəyini davam etdirdi".



## Ata yolu ilə qorxmadan addımlayan övladlar - bəzilərinin hünər edib gedə bilmədikləri yerə Arif Rüstəmov özünün azyaşlı övladlarını aparırdı!



"Belə bir məqamda övladlarımız da o mitinqlərdə iştirak edir, xalqın mübarizəsində öz sözlərini deyirdilər. Eyni zamanda, bəzilərinin hünər edib gedə bilmədikləri yerə Arif Rüstəmov özünün azyaşlı övladlarını aparırdı. Bu gün onlardan biri - Tural Rüstəmov hüquq-mühafizə sistemində çalışır, Vətənimizin, vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması istiqamətində üzərinə düşən məsuliyyəti uğurla icra edir. Bir ana olaraq mən fəxr edirəm ki, Arif Rüstəmovun övladları onun əqidə və şərəf yolunu yaşadır, Ulu Öndər Heydər Əliyev ideyalarına və bu ideyaları uğurla davam etdirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev cənablarının apardığı mütərəqqi siyasətə, dövlətə, xalqa sadiqlikləri ilə seçilirlər. Bir valideyn kimi bu hisslər mənə qürur hisləri verir", deyə Arif Rüstəmovun ömür-gün yoldaşı Havva Həsənova bildirib.

## Arif müəllim Ulu Öndər Heydər Əliyevlə teleqramlaşır, onun tövsiyələrini həyata keçirmək üçün qorxmadan fəaliyyət göstərirdi

Havva xanımın fikirlərindən o da məlum oldu ki, Arif müəllim Ulu Öndər Heydər Əliyevlə teleqramlaşır, onun tövsiyələrini həyata keçirmək üçün qorxmadan fəaliyyət göstərirdi. Həmin ağır dövrlərdə hətta onu tanıyanlar, o cümlədən iş yoldaşları Arif müəllimdən yan gəzirdilər. Onlar AXC-Müsavat hakimiyyətinin təqib və təzyiqlərindən çəkinir və qorxurdular.



Havva Rüstəmova Azərbaycan ordusunun uğurlu hərbi qələbələrindən də danışaraq bildirir ki, Azərbaycan xalqının bir yumruq kimi birləşərək 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşməsi bu gün ölkəmizin inkişaf təzahüründə özünü göstərməkdədir. "Mən ona da qürur duyuram və Allahıma şükür edirəm ki, bu Zəfərimizi Arif müəllim də gördü. Bu gün övladlarımız da qalib Vətənin övladları olaraq yaşamaqda, fəaliyyətlərini davam etdirməkdədirlər".

**Rövşən RƏSULOV**

# "Mənəvi dəyərlər və dövlət siyasəti" adlı hesabat-konfransı keçirilib

**Dünən Mənəvi Dəyərlərin Təbliği Fondunun yaranmasının 5-ci ildönümünə həsr olunmuş "Mənəvi dəyərlər və dövlət siyasəti" adlı hesabat-konfransı keçirilib. SİA-nın verdiyi məlumata görə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**



Sonra isə Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov açılış nitqi ilə çıxış edərək bildirib ki, Fond ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə yaradılıb: "Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra iqtisadi, siyasi, sosial,



mədəni sahələrlə yanaşı, dini-mənəvi sahədə də müstəqilliyin qorunmasına, inkişafına çox önəm verildiyini bildirib. Qeyd edilib ki, ulu öndər Heydər Əliyev hakimiyyəti dövründə dini-mənəvi sahədə də çox mühüm addımlar atılıb".

Daha sonra isə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaranmasının 5-ci ildönümünə həsr olunmuş video-çarx nümayiş etdirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Fondun zamanın çağırışlarına uyğun olaraq yaradıldığını qeyd edib. Diqqətə çatdırılıb ki, Fond beş il ərzində çox böyük yol keçib və Nizamnaməsində əksini tapan fəaliyyətini getdikcə genişləndirməkdədir.





Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi Əliheydər Zülfüqarov dünyada milli-mənəvi dəyərlərə bağlı xalqlar üçün öz bütövlüyünü qorumaq və onu gələcək nəsillərə ötürməyin ən önəmli məsələlərdən biri olduğunu diqqətə çatdırıb. O deyib: "Milli mənəvi dəyərlərin təbliği bizim üçün də hər zaman öndə olub və Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması bu istiqamətdə atılmış ən önəmli addımlardan biri idi. Azərbaycançılıq ideologiyasının banisi Heydər Əliyevin həyata keçirdiyi siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və milli-mənəvi dəyərlərin gücləndirilməsinə xidmət edir. Məhz mənəvi dəyərlərə sıx bağlı olan gənclərimiz 2020-ci ildə Ali Baş Komandanın ətrafında sıx birləşərək torpaqlarımızı işğaldan azad etdilər. Bu, onu göstərir ki, xalqımız mənəvi dəyərlərinə önəm verir və onunla fəxr edir".





SƏS Media Qrupunun rəhbəri, Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü, Bəhruz Quliyev çıxış edərək bildirib ki, Azərbaycan dövləti dünyəvi dövlət olmaqla yanaşı, mənəvi dəyərlərimizi də qoruyub saxlayır: "Bu dövlət siyasətinin əsası Ümummilli Lider tərəfindən qoyulub. Ulu Öndər sağlam cəmiyyəti formalaşdıraraq milli dəyərlərimizə bağlı gənclik yetişdirdi. Hüquqi dövlətimizin formalaşması ilə yanaşı müxtəlif sferalara məxsus cəmiyyətimiz də mövcud oldu. Bu gün mənəvi dəyərlərimizin təbliği işi dövlətin əsas siyasi xəttinə bağlıdır. Mənəvi Dəyərlərin Təbliği Fondunun layihələrinin, işğalının müzakirəsində çox maraqlı fikirlər mübadiləsi aparılır. Dövlətin bu sahədəki siyasətidir. 2002-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması dövlətin dini icmalara, qurumlara münasibətinin bariz nümunəsi idi. Bu, dövlətin tolerantlıq siyasəti idi. Daha sonra isə DQİDK-in tərkibində İlahiyyat İnstitutunun və Mənəvi dəyərlərin təbliği fondunun fəaliyyətə başlaması bu sahədə olan problemlərin tədricən həllinə xidmət etdi.



Bəhruz Quliyev fikirlərinə davam edərək həmçinin qeyd edib ki, bəzi məscidlərdə savadsız mollaların dindən danışması ihrak hissi yaradırdı: "Məclislərimizdə iştirak edən molların savadlı olması, dövlət və din münasibətlərindən danışması daha vacibdir. Bu dövlətin din siyasətidir. Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması dövlətin mənəvi dəyərlər xəzinəsinə verdiyi dəyərdir. Fondun yaradılması mənəvi dəyərlərimizin deqredasiyaya uğramamasına xidmət edir. Çünki bu bizim xəzinəmizdir. Bu xəzinəni inkişaf etdirmək lazımdır. Dövlətin bu strategiyası göstərir ki, bu xəzinənin artırılmasına xidmət edir. Bundan əlavə olaraq Azərbaycan xalqının digər bir mənəvi dəyəri şəhid ailələri, qazilər və onların ailələridir. Biz bu dəyərləri yaşatmaq və gələcək nəsillərə ötürməliyik. Ulu Öndər Heydər Əliyev and içərkən qeyd edib ki, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə sadiq olacağıma, onları ümumbəşəri dəyərlərlə zənginləşdirəcəyimə və inkişaf etdirəcəyimə and içirəm. Bu münasibət artıq Ulu Öndərin mənəvi dəyərlərə münasibətidir. Bu gün bizim Prezident İlham Əliyev tərəfindən aparılan siyasət inkişaf etdirilən dəyərlər kompleksidir. Azərbaycançılıq və milli ideologiyanın formalaşdırılmasında mənəvi dəyərlərimizin çox böyük rolu var. Ona görə də biz milli və mənəvi dəyərlərimizi qorumaq və zənginləşdirmək bizim borcumuzdur. Əminəm ki, bu fond yaşadıqca mənəvi dəyərlərimizə öz töhfəsini verəcək".

Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, Azərbaycanda dini sahədə çox uğurlu siyasət aparılır və dəyərlərimizin inkişaf etdirilməsi yolu seçilib. Biz dəyərlərimizi qoruyur və təbliğ edirik. Digər çıxış edənlər Fondun mənəvi dəyərlərin təbliği istiqamətində gördüyü işləri yüksək qiymətləndirib, gələcək fəaliyyətində uğurlar arzulayıblar. Sonda fərqlənən əməkdaşları Fəxri fərmanla təltif olunublar.

# Müharibədə yeni dalğa





**Oktyabrın 10-da səhər saatlarında Rusiya Xəzər dənizindəki gəmilərindən atılan 75 raketlə Ukraynanın Vinnitsa, Lvov, Kirovoqrad, Nikolayev, Poltava, Ternopil, Jitomir, Kiyev və başqa rayonlara zərbələr endirib. Bu, rusların Ukraynaya kütləvi hücumundan ən dəhşətlisidir, desək yanılmarıq. Qeyd edək ki, atılan raketlərin əksəriyyəti S-300-dür.**

## Rusiya Ukraynanın 8 şəhərini Xəzərdən S-300-lərlə vurdu

Ukrayna Müdafiə Nazirliyi Rusiyanın Ukrayna şəhərlərinə kütləvi raket hücumuna münasibət bildirib və revanş elan edib. Nazirlikdə qeyd edildiyi kimi, Rusiya Ukraynanın bir sıra şəhər və rayon mərkəzlərinə hücum edib, Kiyev kütləvi raket hücumlarına məruz qalıb. Mülki infrastruktura ziyan dəyib. "Ölkənin hər yerində hava hücumu davam edir. İnsanlar arasında itkilər var, infrastruktura ciddi ziyan dəyib. Rusiya Federasiyasının terror aksiyaları dinc əhaliyə qarşı yönəlib. Düşmən torpağımıza gətirdiyi ağrının və ölümün cəzasını alacaq! Biz qisas alacağıq", - Müdafiə Nazirliyi söz verib.

Eyni zamanda, müdafiə naziri Oleksiy Reznikov heç bir raket zərbəsinin Ukraynanı parçalamayacağını vurğulayıb: "Bizim cəsarətimiz heç vaxt terrorçu raketlər tərəfindən məhv edilməyəcək, hətta paytaxtımızın ürəyinə dəysə belə. Onlar müttəfiqlərimizin də qətiyyətini sarsıtmayacaqlar. Onların dönməz şəkildə məhv etdikləri yeganə şey Rusiyanın gələcəyidir - terrorçunun gələcəyidir. yaramaz dövlət bütün dünyada tapdalanır".

Qeyd edilib ki, partlayışlar səbəbindən Kiyevdəki bütün metro stansiyaları sığınacaq kimi işləyir. Qırmızı xətt üzrə qatarların hərəkəti dayandırılıb. Dneprdə bir neçə partlayış baş verib. Şəhərdən tüstü qalxır. Jitomirdə də partlayış səsləri gəlir. Səlahiyyətlilərdən sığınacağı tərk etməmələri xahiş olunur. Xmelnitski, Ternopil və digər ərazilərdə partlayış səsləri eşidilir. Bundan əlavə, Rusiya Lvov vilayətinə raket zərbələri endirib. Enerji infrastrukturu obyektlərində zərbə qeydə alınıb.

Rusiya zərbə PUA-larından istifadə etməklə Ukrayna ərazisinə kütləvi raket və hava zərbələri endirir. Rusiyanın Ukraynaya endirdiyi 75 raket zərbəsindən 41-i hava hücumundan müdafiə sistemi (AD) tərəfindən zərərsizləşdirilib. Bu barədə Ukrayna Silahlı Qüvvələrinin Ali Baş Komandanı, general Valeri Zalujnı bildirib: "Terrorçu ölkə Rusiya Federasiyası Ukrayna ərazisinə zərbə PUA-larından istifadə edərək kütləvi raket və hava zərbələri endirir. Səhər saatlarında təcavüzkar artıq 75 raket atıb. Onlardan 41-i hava hücumundan müdafiəmiz tərəfindən zərərsizləşdirilib. Silahlı Qüvvələr həmvətənlərini qorumaq üçün əllərindən gələni edirlər". "Lakin düşmənin hücumu davam edir. Mən hamını sığınmağa çağırıram!" general əlavə etdi.

Ukrayna prezidenti Vladimir Zelenski ölən və yaralananlar haqqında bunları deyib: "Tammiqyaslı müharibənin 229-cu günüdür. 229-cu gündür ki, bizi məhv edib yer üzündən silməyə çalışırlar. Zaporojyedə evdə dinc sakinləri məhv etmək, Dnepr və Kiyevə işləməyə gedənləri öldürmək, Rusiya hərbçilərinin hədəflərindən biridir. Rusiya həm də Ukraynanın enerji sistemini məhv etməyə çalışır".

### Zelenskinin videomüraciəti:

"Ukraynalılar! Ağır səhərdir, terrorçularla mübarizə aparırıq. Üzərimizə onlarla raket, İran "Şahid"ləri atan Rusiyanın növbəti hədəfi bütün ölkədə enerji obyektlərini sıradan çıxarmaqdır. Kiyev və Xmelnitski vilayətləri, Lvov və Dnepr, Vinnitsa, Frankivsk vilayəti, Zaporojye, Sumı vilayəti, Xarkov vilayəti, Jitomir vilayəti, Kirovohrad vilayəti, ölkənin cənubu düşmənin hədəfindədir. İkinci hədəf insanlardır. Onlar bilərəkdən belə bir vaxtı, belə məqsədləri seçiblər ki, mümkün qədər ziyan vursunlar. Amma, biz ukraynalıyıq, bir-birinə kömək etməkdə tərəddüd etməyəcəyik, biz özümüzə inanırıq. Biz məhv edilmiş hər şeyi bərpa edirik. İndi elektrik enerjisində müvəqqəti fasilələr ola bilər, amma inamımız da - qələbəyə inam da heç vaxt kəsilməyəcək.

Niyə belə zərbələr vururlar? Düşmən istəyir ki, biz qorxaq, insanlar da qaçsın. Ancaq biz yalnız irəli qaça bilərik və bunu döyüş meydanında nümayiş etdiririk. Bundan sonra da belə olacaq. Xilasedicilər iş başındadır. Hava hücumundan müdafiəmiz işləyir. İndiyədək 41 hava hədəfi vurulub. Bu gün lütfən, sığınacaqlarda olun. Hərbçilərimizin köməyi sayəsində hər şey yaxşı olacaq. Həmişə təhlükəsizlik qaydalarına əməl edin".

Bu arada Ukrayna prezidenti Vladimir Zelenski və Almaniya kansleri Olaf Şolz G7-nin təcili iclasının çağırılması barədə razılığa gəliblər. Bu barədə Zelenski Tvitter hesabında məlumat verib: "Biz G7-yə sədrlik edən Almaniya kansleri Olaf Şolzla qrupun təcili iclasını çağırmaq barədə razılığa gəldik".

Prezidentin sözlərinə görə, onun Rusiya Federasiyasının terror aktları barədə danışacağı görüşdə çıxışı planlaşdırılır. "Biz həmçinin Rusiyaya təzyiqin artırılması və zədələnmiş infrastrukturun bərpasına yardımı müzakirə etdik", - deyə Zelenski əlavə edib.

Rusiya prezidenti Putin isə baş vermiş hadisə ilə bağlı xalqa müraciətində etiraf edib ki, Ukraynaya raket zərbəsi Krım körpüsünə görədir və qisasdır: "Bu gün səhər saatlarında Müdafiə Nazirliyinin təklifi və Rusiya Baş Qərargahının planına əsasən, Ukraynanın enerji, hərbi komandanlıq və rabitə obyektlərinə qarşı kütləvi hava, dəniz və qurudan yüksək dəqiqlikli uzaqmənzilli silah buraxılıb".

RAZIKURS

Putin müraciətində Ukraynanı yeni zərbələrlə hədələyib: ”Əgər ərazimizdə terror aktları davam edərsə, Rusiyanın cavabları sərt olacaq və miqyasına görə Rusiya Federasiyasının təhdidləri səviyyəsinə uyğun olacaq. Buna heç kimin şübhəsi olmasın”.

Bunun ardınca Kreml Krım körpüsünün ”nüvə çətiri” altında olub-olmamasına dair jurnalistin sualını cavablandırarkən ona irad tutmağı da unutmayıb və bunu ”sualın düzgün tərtib edilməməsi” kimi qeyd edib. Buna baxmayaraq, Qərb jurnalistləri güman edirdilər ki, Putin Krım körpüsündə baş verən partlayışları ”şəxsi təhqir” kimi qiymətləndirib və amansız qisas alacaq. Dmitri Peskov Rusiya raketlərinin Ukrayna şəhərlərinə kütləvi hücumundan sonra verdiyi açıqlamada həmçinin bildirib ki, bütün bunlar ”xüsusi əməliyyat” çərçivəsində baş verib. ”Bütün bunlar xüsusi hərbi əməliyyatın bir hissəsi kimi baş verir. Bu zərbələrə gəlincə, əlbəttə ki, Müdafiə Nazirliyindən şərh gözləmək və ya konkret olaraq Müdafiə Nazirliyinə suallar ünvanlamaq lazımdır”, - Peskov bildirib.

Eyni zamanda o, bəyan edib ki, ”xüsusi hərbi əməliyyatın gedişində əsas məsələləri Rusiya prezidenti Vladimir Putinə məruzə etmədən həll etmək olmaz”.



## Borrell hücumdan sonra



Avropa diplomatiyasının rəhbəri Rusiyanın Kiyevdə və Ukraynanın digər şəhərlərində dinc əhaliyə qarşı hücumlarından dərin sarsıldığını bildirib. Avropa Komissiyasının vitse-prezidenti, Aİ-nin Xarici və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Josep Borrell Aİ-nin Ukraynaya yeni hərbi dəstəyini açıqlayıb. O, bu barədə Twitter-də məlumat verib.

”Rusiyanın Kiyevdə və Ukraynanın digər şəhərlərində dinc sakinlərə hücumundan dərin sarsıntı keçirdim. XXI əsrdə belə hərəkətlərə yer yoxdur. Mən onları qətiyyətlə pisləyirəm”, - Borrell deyib.

Avropa diplomatiyasının rəhbəri Aİ-nin Ukraynanın yanında olduğunu vurğulayıb. ”Aİ-dən əlavə hərbi dəstək yoldadır”, o əlavə edib.

Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı Rusiyanın oktyabrın 10-da səhər saatlarında Ukraynanın dinc şəhərlərində törətdiyi kütləvi terrorla bağlı məlumat paylaşıb. Ölkəmizin ərazisinə hücumlar Xəzər dənizi və Nijni Novqoroddan həyata keçirilib. Bu günə qədər 83 raket atılıb. Müvafiq məlumat müdafiə nazirinin müavini Anna Malyarın Telegram-kanalında yer alıb. O, Baş Qərargahın rəsmi məlumatlarına istinad edib: ”Bu gün saat 06:20-dən 11:15-dək Rusiya Federasiyası Xəzər dənizi regionlarından və Nijni Novqoroddan Kiyev, Lvov, Priluki, Xmelnitski, Dnepr, Nijin, Jitomir, Xarkov şəhərlərinə raket zərbələri endirib”.

Oktyabrın 10-u saat 11:34-ə olan məlumata görə, Rusiya ordusu 83 raket atıblar. Onlardan 43-ü Ukrayna hava hücumundan müdafiə qüvvələri tərəfindən vurulub. Həmçinin müvəqqəti işğal olunmuş Krım və Belarus ərazisindən buraxılmış 17 ədəd ”Shahed 136” kamikadze pilotsuz uçan aparatdan da istifadə ediblər. Odessanın vilayət rəhbəri Maksim Marçenkonun verdiyi məlumata görə, Odessa vilayətində üç PUA vurulub.

## Hücum gözlənilməz deyildi

Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin məlumatına görə, Rusiya işğalçı qoşunlarına oktyabrın 2-də və 3-də Ukraynanın mülki infrastrukturuna kütləvi raket zərbələri endirmək üçün Kreml göstəriş verib: ”Ukraynanın hərbi kəşfiyyatının məlumatına görə, Rusiya işğalçı qoşunları oktyabrın 2-də və 3-də Ukraynanın mülki infrastrukturuna kütləvi raket zərbələri endirmək üçün Kremldən göstəriş alıb. Strateji və uzaqmənzilli aviasiyanın hərbi hissələrinə hazırlaşmaq üçün göstərişlər verilib. Ukraynanın sıx məskunlaşdığı şəhərlərin mülki infrastrukturu və mərkəzi əraziləri hücunun hədəfi olub”.



Kəşfiyyat məlumatlarında qeyd edildiyi kimi, oktyabrın 8-də Kh-101 qanadlı raketləri ilə təchiz edilmiş yeddi Tu-160 strateji bombardmançı Engels aerodromundan Olenya aerodromuna köçürülüb. Sevastopolun bayır zolağına 40 kalibr raketi ilə 6 qanadlı raket daşıyıcısı yerləşdirilib. Rusiyanın əsas məqsədi İES-i dağıtmaq, ukraynalılar arasında panika yaratmaq və Avropa ictimaiyyətini qorxutmaq olub.

## Cavab gecikmədi



Bu arada Rusiyada silsilə partlayış hadisələri baş verib. Kursk və Belqorod vilayətləri ərazisində partlayışlar nəticəsində Rusiya Ordusunun bazası və S-300 zenit-raket komplekslərinin olduğu anbarlar məhv edilib. Burmakinoda isə Rusiya Federasiyası Müdafiə Nazirliyinin silah-sursat anbarı yanıb. Deputat Yuri Musyagin bildirib ki, Kursk vilayətinin Qluşkovski rayonunun Tetkino qəsəbəsində rusların hərbi bazasına zərbə endirilib. Yaralılar və ölənlər barədə hələlik məlumat yoxdur.

Hərbi müşahidəçi və könüllü Roman Boçkala deputatın məlumatlarına aydınlıq gətirib. Onun sözlərinə görə, Kursk vilayətində pilotsuz uçan aparatların idarəetmə mərkəzi məhv edilib. O, həmçinin Belqorod vilayətində Rusiya artilleriyasının əhatə etdiyi 3 S-300 hava hücumundan müdafiə sisteminin metal qırıntısına çevrildiyini yazıb.

Rusiyanın regional Telegram kanalları da Bryansk vilayətində səfərbər edilmiş ehtiyatda olan hərbçilərin poliqonuna zərbə endirilməsi barədə məlumat yayıb. Lakin Ukrayna tərəfdən heç kim bunu təsdiqləməyib.

Daha bir hadisə Yaroslavl vilayətinin Burmakino şəhərində baş verib. ”Arsenal 6 of the Navy” adlı sursat anbarında partlayış olub. İnternetdə yanğının videosu yayılıb.

Beləliklə, Ukraynada artır 230-cu gündür davam edən müharibədə dönüşün yarandığı, Ukrayna ordusunun ardı-arası kəsilməyən əks-hücumlarının davam etdiyi bir vaxtda Rusiya müharibənin gedişatını dəyişmək üçün qəti həmləyə keçdi. Ukraynanın 8 şəhəri dağıdıcı gücə malik olan S-300-lərlə vuruldu. Və bununla da Rusiya taktiki nüvə silahından istifadə edəcəyi anonsunu da verdi. Halbuki, Ukraynanın qərbli dostları buna heç də inanmırlar. Amma, olanlar oldu. Kim zəmanət verə bilər ki, Rusiya sabah taktiki nüvə silahından istifadə etməyəcək?

**V.VƏLİYEV**

# XALQ ÖZ ŞƏHİD ÖVLADLARINI UNUTMUR!

## Respublikamızın hər yerində şəhidlərimizin anım mərasimləri keçirilib

Lerik rayonunun Mistan kəndində Vətən müharibəsi şəhidi Çingiz Babayevin anım mərasimi keçirilib. Anım mərasimində Lerik rayon icra hakimiyyəti başçısı Əkbər Abbasov, YAP Lerik rayon təşkilatının sədri Malik Mirzəyev, hüquq-mühafizə orqanları, idarə, müəssisə,təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri, Ərazi Partiya Təşkilatının fəalları, kənd sakinləri və şəhidin ailə üzvləri iştirak etmişlər. Mərasim iştirakçıları ilk öncə Mistan kəndində Qarabağ müharibəsi şəhidlərinin adına inşa edilmiş bulaq kompleksini ziyarət etmiş, daha sonra şəhidin məzarı önünə gül çiçək dəstələri düzərək, əziz xatirəsini ehtiramla yad ediblər. Eyni məzarlıqda uyuyan 1-ci Qarabağ müharibəsi şəhidi Vahabov Əliniyaz Əhmədəli oğlunun da məzarı ziyarət olunaraq, əziz xatirəsi ehtiramla yad edilib.



İsmiyev Emil Elman oğlu
07.08.2001 - 07.10.2020
Ağdaş şəhəri F. Səfərov küç.



Nəbiyev Yusif Elton oğlu
27.05.2002 - 09.10.2020
Ağdaş şəhəri Aşağı Zeynəddin kəndi

Xatırladaq ki, şəhid Çingiz Babayev 21 sentyabr 2001-ci ildə Lerik rayonunun Mistan kəndində anadan olub. 2018-ci il oktyabr ayının 3-də Lerik rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb və Tərtər rayonunun Cəmilli kəndində yerləşən "N" saylı hərbi hissədə xitmət edib. 27 sentyabrda başlayan II Qarabağ müharibəsinin fəal iştirakçısı olub. Ağdərə, Tərtər və Suqovuşan istiqamətində gedən ağır döyüşlərdə böyük şücaət və qəhrəmanlıq göstərib. 10 oktyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olur. Şəhidin nəşi doğulduğu Lerik rayonu Mistan kəndinə gətirilib və kənd qəbristanlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının medallarla təltif edilməsi haqqında Prezident İlham Əliyevin imzaladığı Sərəncamlara əsasən, Babayev Çingiz Sulduz oğlu ölümündən sonra orden və medallar ilə təltif edilib.



Bundan başqa, oktyabrın 9 və 10-da Ağdaş şəhərində 44 günlük Vətən müharibəsində şəhid olmuş İsmiyev Emil Elman oğlunun və rayonun Tatlar kəndində Nəbiyev Yusif Elton oğlunun ikinci ildönümü ilə bağlı mərasimlər keçirilmişdir. Mərasimlərdə Yeni Azərbayan Pariyası Ağdaş rayon təşkilatının sədri Əlişah Rəcəbov və partiya fəalları, Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İsmayıl Yusifzadə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağdaş rayon şöbəsinin rəisi Nizami Heybətov və əməkdaşları, İcra Hakimiyyətinin və rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları iştirak etmişlər. Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirələri ehtiramla anılmış, ruhlarına dualar oxunmuş valideyinlərinə başsağlığı verilmişdir.







Həmçinin Ağalı və Aşağı Zeynəddin qəbiristanlıqlarında da anım tədbirləri keçirilmişdir. Tədbirlər Dövlət Himninin səslənməsi ilə başlamış, vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, məzarları ziyarət olunmuş, üzərinə tər güllər düzülmüş, ruhlarına dualar oxunmuşdur. Çıxış edənlər 44 gün davam edən Vətən müharibəsindən, bu döyüşlərdə şəhid olan ağdaşlılardan, onların keçdiyi döyüş yolundan söhbət açmış, Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkənin ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdiyini bildirmişlər. Şəhidlərimizin təhsil aldığı və məzun olduqları Nizami adına şəhər və Zeynəddin kənd tam orta məktəblərinin şagirdlərinin ifasında ədəbi-bədii kompazisiya nümayiş olunmuşdur.



İsmiyev Emil Elman oğlu 7 avqust 2001-ci ildə Ağdaş şəhərində anadan olmuşdur. Emil İsmiyev Azərbaycan Ordusunun əsgəri kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda başlayan Vətən müharibəsində iştirak etmiş, oktyabrın 9-da Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Nəbiyev Yusif Elton oğlu 27 may 2002-ci il tarixdə Ağdaş rayonunun Tatlar kəndində anadan olmuşdur. Yusif Nəbiyev Azərbaycan Ordusunun əsgəri kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda başlayan Vətən müharibəsində iştirak etmiş, oktyabrın 10-da Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmişdir. Aşağı Zeynəddin kənd qəbiristanlığında dəfn edilmişdir. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunmuşdur.

Növbəti anım tədbiri Yasamal rayonunda keçirilib. YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Yasamal rayon icra hakimiyyətinin başçısı Elşad Həsənov, Milli Məclisinin deputatı Ülvi Quliyev, Yasamal rayon Bələdiyyəsinin sədri Tahir Məmmədov, YAP Yasamal rayon təşkilatının və Yasamal rayon icra hakimiyyətinin məsul əməkdaşları, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yasamal rayon İdarəsinin rəisi polkovnik-leytenant Ramin Şükürov, şəhidin ailə üzvləri və yaxınları və Yasamal rayon ictimaiyyəti tərəfindən 44 günlük Vətən müharibəsi şəhidləri gizir İslamov Elvin Elçin oğlunun və gizir Qasımov İsmayıl Sadıq oğlunun məzarları ziyarət olunub, ruhlarına dualar oxunub. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, şəhid İslamov Elvin Elçin oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə, şəhid Qasımov İsmayıl Sadıq oğlu isə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Allah şəhidlərimizə rəhmət eləsin!

# 44 günlük Vətən müharibəsinin 15-ci günü - Gəncə terroru

## Prezident İlham Əliyev: "Biz onlara elə cavab verdik ki, indi onlar təəssüflənirlər"

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusunun "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başlaması və 44 gün davam edən Vətən müharibəsi 30 ilə yaxın işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın Rai-1 televiziya kanalına müsahibə verərkən "Cənab Prezident, sentyabrın axırlarında Sizin hərbi əməliyyatlara başlamağınıza, əslində, nə səbəb olmuşdu? Nə üçün belə oldu?" - sualına dövlət başçısı belə cavab vermişdi: "Bu, siyasi və hərbi xarakterli hadisələrin gedişi ilə bağlıdır. Əsas səbəb ondan ibarətdir ki, Ermənistan danışıqlar prosesini hər vasitə ilə pozmaq istəyirdi. Ermənistanın yeni hökuməti dəfələrlə bəyan etmişdi ki, baza prinsipləri ondan ötrü qəbuledilməzdir, o, işğal edilmiş ərazilərin bircə qarışını belə qaytarmağa hazırlaşmır. Bu isə baza prinsiplərinə ziddir. Baş nazir bəyan edirdi ki, Azərbaycan danışıqları Ermənistan ilə deyil, qondarma "Dağlıq Qarabağın" rəhbərləri ilə aparmalıdır. Bu, həm bizim üçün, həm də ATƏT-in Minsk qrupu üçün qəbuledilməz idi. Baş nazir, həmçinin bəyan edirdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Bununla da o, danışıqlar prosesini tamamilə pozmuş oldu. Son bir ildə praktiki olaraq, danışıqlar aparılmayıb və Ermənistan bunun təqsirini bizim üzərimizə yıxmaq üçün üç dəfə təxribat cəhdi göstərdi - iyul ayında sərhəddə, avqust ayında təxribat qrupu göndərildi və sentyabr ayında bizim dinc şəhərlər atəşə tutuldu". Onlar yəqin düşünürdülər ki, biz bu dəfə də təmkin göstərəcəyik, deyən Cənab Prezident bunun belə olmadığını diqqətə çatdırıb: "Biz onlara elə cavab verdik ki, indi onlar təəssüflənirlər".

Bu dərs ilə barışmayan ermənilər dinc əhaliyə atəş açaraq mülki insanları qətlə yetirirdilər. Ermənistanın atəşkəsi pozaraq Azərbaycana hücum etməsi və mülki əhalini hədəf alması onların diplomatik həll istəməyən, siyasi müzakirələrdən uzaq niyyətlərinə əsaslanır. dövlətimizin başçısı dəfələrlə çıxışlarında, eləcə də xarici kütləvi informasiya vasitələrinə müsahibələrində Azərbaycan dövlətinin və xalqının prinsipial mövqeyini qətiyyətlə ifadə edərək ədalətin bərpa olunmasını, işğal edilmiş torpaqlarımızın geri qaytarılmasını bildirib: "Baza prinsipləri isə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ətrafında yerləşən yeddi rayonun Azərbaycana qaytarılmasını və azərbaycanlı məcburi köçkünlərin Dağlıq Qarabağ ərazisinə, o cümlədən Azərbaycanın qədim Şuşa şəhərinə qayıtmalarını nəzərdə tutur. Prinsip etibarilə bu yanaşmalar BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əsaslanır, həmin qətnamələr də praktiki olaraq, bunu tələb edir. Lakin Ermənistanın baş naziri deyəndə ki, onlar bircə qarış belə torpağı bizə verməyəcəklər, Ermənistanın müdafiə naziri bəyan edəndə ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə başlayacaq və bizə qarşı təcavüz həyata keçiriləndə, bu, əlbəttə, konstruktiv yanaşma deyil. O deməlidir ki, bəli, işğal edilmiş ərazilər Azərbaycana qaytarılacaq, bəli, azərbaycanlılar Dağlıq Qarabağa, o cümlədən Şuşaya qayıdacaqlar, bax, onda biz çox tezliklə razılığa gələrik".

Artıq Azərbaycan düşmənə öz gücünü göstərmişdi. 2020-ci ilin oktyabr ayının 11-nə qədər qısa bir zamanda Tərtər rayonunun Suqovuşan və Talış kəndləri, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi, Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi, Füzuli rayonunun Yuxarı Güzlək, Görəzilli kəndləri və digər ərazilərimiz işğaldan azad olunmuşdur.






### "MƏN DÜNYA BİRLİYİNİ BAŞ VERƏN BU HADİSƏLƏRƏ LAQEYD QALMAMAĞA ÇAĞIRIRAM"

Müharibənin 15-ci günü erməni faşist ideologiyasının daha bir üzünü ortaya qoydu. Terror aktlarını davamlı olaraq həyata keçirən Ermənistan növbəti dəfə oktyabrın 11-də Gəncə şəhərində terror aktı törətdi. Ermənistan silahlı qüvvələri Gəncə şəhərini ağır artilleriya atəşinə tutdu. Gecə saat 2 radələrində cəbhə zonasından kənarda yerləşən şəhərin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarının raket atəşinə tutulması nəticəsində 3-ü qadın olmaqla, 7 nəfər həlak olub, 16-sı qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralandı. Həmçinin, 10-dan çox çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəydi.

"Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini intensiv atəşə tutmaqda davam edirlər. Bu, humanitar atəşkəs rejiminin, habelə 1949-cu il Cenevrə konvensiyalarının kobud şəkildə pozulması deməkdir. Bu gecə saat 2 radələrində Gəncə şəhərinə amansızlığına görə misli görünməmiş zərbə endirilib". Bu fikirləri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması ilə əlaqədar 11 oktyabr 2020-ci il tarixində rəsmi "Instagram" səhifəsində paylaşım etmişdi. "Bizim şəhərlərin və kəndlərin atəşə tutulması demək olar ki, dünən bütün gün ərzində davam edib" - bildirən Mehriban xanım Əliyeva qeyd edib ki, humanitar atəşkəs rejiminin qüvvəyə mindiyi andan ermənilər tərəfindən Azərbaycan Respublikasının bir sıra rayonlarına 548 mərmi atılıb.Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutmaqda davam edirdi. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərində mülki əhaliyə qarşı törətdiyi qanlı terror aktı ilə bağlı dünya birliyinə çağırış etdi. "Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram. Beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər. Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzə son qoymağa çağıran qətnamələrinə etinasızlığı dayandırmalıdır. Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə edilmiş razılaşmalara açıq-aşkar hörmətsizlik nümayiş etdirən Ermənistan Cənubi Qafqazda nəticələri onun üçün dağıdıcı olacaq müharibənin yeni mərhələsinə təhrik edir".

Düşmənin gecə saat 4 radələrində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İstilik Elektrik Stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 kilometrdən çox uzaqda yerləşən iri sənaye şəhəri Mingəçevirə atdığı raketlər Ordumuzun Hava Hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilmişdi. İtirdikləri mövqeləri geri qaytarmaq məqsədilə oktyabrın 10-dan 11-nə keçən gecə hücuma keçməyə cəhd göstərən düşmənin qüvvə və vasitələri Azərbaycan Ordusunun bölmələri tərəfindən məhv edildi. Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin

3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 5 ədəd 2S1 "Qvozdika" özüyeriyən haubitsası, 8 ədəd hava hücumundan müdafiə sistemi və radiolokasiya stansiyası sıradan çıxarıldı. Azərbaycan Hərbi Hava Qüvvələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 41-ci əlahiddə artilleriya alayı bölmələrinə havadan endirilən zərbələr nəticəsində düşmən ağır itkilər verdi.

### GƏNCƏ BOMBALANMALARI VƏ YA GƏNCƏYƏ RAKET HÜCUMLARI

2020-ci ilin oktyabr ayında Azərbaycanın Gəncə şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən 5 dəfə ayrı-ayrı zamanlarda bombalandı.

İlk hücum 4 oktyabrda baş vermiş və 1 mülki şəxsin Əliyev Tunar Qoşqar oğlunun Şəhid olması, 30-dan çox mülki şəxsin yaralanması ilə nəticələnmişdir. Bu raket hücumu müharibənin getdiyi Dağlıq Qarabağ bölgəsindən kənara edilən ilk ciddi hücum idi. İkinci raket hücumu isə 5 oktyabrda baş vermişdir. Hücum nəticəsində 3 mülki şəxs yaralanıb. Üçüncü raket hücumu oktyabrın 8-də baş vermişdir. Həlak olan və yaralanan olmamışdır. Dördüncü raket hücumun isə 11 oktyabrda baş verməsi nəticəsində 10 mülki şəxs şəhid oldu və 40-dan çox insan yaralandı. Bu hücum imzalanan atəşkəsdən bir gün sonra baş verdi və atəşkəsin pozulması ilə nəticələnmişdir. Mülki şəxsləri hədəf alan beşinci raket hücumu isə 17 oktyabrda baş vermişdir. Hücum nəticəsində hamısı mülki şəxslər olmaqla, 16 nəfər şəhid oldu, 55 nəfər isə yaralandı. Hücumlar zamanı şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər binalara, avtomobillərə ziyan dəydi.

Dövlət başçısının göstərdiyi qətiyyətli mövqe, gündən-günə hərtərəfli formalaşan qüdrətli Azərbaycan Ordusu və xalqımızın mübariz ruhu işğal olunmuş torpaqlarımızı erməni işğalından azad etdi. Cənubi Qafqazın lider dövləti olan Azərbaycan öz torpaqlarını qarış-qarış işğaldan azad etdi və işğaldan azad olunan torpaqlarımızda Azərbaycan bayrağı dalğalandı.

***Zümrüd BAYRAMOVA***

# "Azərbaycan təcrübəsini beynəlxalq ictimaiyyətlə bölüşür"

**"Oktyabrın 5-də BMT-nin Yaşayış Məskənləri Proqramı (UN-HABITAT) və Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə Ağdamda "Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi" - postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda keçirilən Azərbaycan Milli Şəhərsalma Forumu bir çox məqamlarla yadda qaldı. Nəzərə alsaq ki, bu, Azərbaycanın yaratdığı milli platformadır, bu halda onun beynəlxalq əhəmiyyəti, Azərbaycanın dünya birliyində yerinə və roluna təsiri özünü aydın şəkildə nümayiş etdirir. Bu baxımdan ki, Forum 44 ölkədən 130-dan çox nümayəndəni, ümumilikdə isə 400 nəfərdən çox iştirakçını işğaldan azad edilmiş Ağdam şəhərində bir araya gətirdi.**



Tədbir müzakirə olunan mövzu ilə yanaşı, məkan baxımından da xüsusi diqqət çəkdi. Sual oluna bilər: Niyə Ağdam şəhəri? Dövlət başçısı İlham Əliyev bu ilin iyun ayında Polşanın Katovitse şəhərində keçirilən Ümumdünya Şəhər Forumunun "Daha yaxşı gələcək naminə şəhərlərimizi dəyişdirək" mövzusunda 11-ci sessiyasında videoformatdakı çıxışında ermənilərin 30 illik işğal dövründə şəhər və kəndlərimizi qəsdən dağıdaraq, hər bir mədəni və dini abidəni talan edərək həmin əraziləri urbisid və kultursidin bariz nümunəsinə çevirdiklərini əsaslı şəkildə diqqətə çatdırdı. Bildirdi ki, bəlkə də İkinci Dünya müharibəsindən sonra şəhərlərin bu miqyasda dağıdılması dünyanın heç bir yerində baş verməyib. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi yer üzündən silinib. Ağdam şəhəri o dərəcədə dağıdılıb ki, əcnəbi mütəxəssislər onu "Qafqazın Xirosiması" adlandırıblar". Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında söyləyib.

Vüqar Rəhimzadə bildirib ki, dünya bu gün "Qafqazın Xirosiması", "Ruhlar şəhəri" adlandırılan Ağdamın timsalında işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinin necə geniş miqyas aldığını görür: "30 ildə dağıdılan, bütün tarixi və dini abidələri yerləyeksan edilən Ağdam şəhəri "ağıllı şəhər" layihəsi çərçivəsində yenidən qurulur, bərpa edilir. Buradakı bərpa-quruculuq işlərinin miqyasını təsəvvür etmək üçün dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın oktyabrın 4-də Ağdam rayonuna səfərlərinə diqqət yetirmək kifayətdir. Səfər zamanı dövlətimizin başçısı yeni çəkilən Bərdə-Ağdam avtomobil yolunda aparılan işlərlə tanış oldu. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin, rayonun Xıdırlı və Kəngərli kəndlərinin, şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin, "City Hotel Agdam" mehmanxanasının təməlqoyma mərasimlərində iştirak etdilər. Həmçinin Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pənahəli Xanın Sarayı və İmarət Kompleksində görüləcək işlərlə tanış olub, Xurşidbanu Natəvanın abidəsinin açılışında, Ağdam şəhərində keçmiş məcburi köçkünlər üçün inşa olunacaq 470 mənzildən ibarət yaşayış məhəlləsinin, şəhərin dəmir yolu və avtovağzal kompleksinin, rayonun Sarıcalı kəndinin təməlqoyma mərasimlərində iştirak etdilər. Ümumiyyətlə, Qarabağ bölgəsinin sənaye mərkəzinə çevriləcək Ağdamda on minlərlə sakin üçün nəzərdə tutulmuş tamamilə yeni şəhər inşa edilir. Ərazisi 200 hektar təşkil edən Ağdam Sənaye Parkı artıq fəaliyyət göstərir. Bu sənaye parkı sərmayədarlara və sahibkarlara açıqdır."

"Azərbaycan Milli Şəhərsalma Forumu adından, eyni zamanda, müzakirəyə çıxardığı mövzudan da göründüyü kimi, şəhərlərin bərpası ilə bağlı beynəlxalq və çoxtərəfli əməkdaşlığın üçün yeni imkan yaradacaq" söyləyən YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, bu gün Azərbaycanın şəhərsalma təcrübəsi dünyaya nümunədir: "Paytaxt Bakımızın timsalında dünya Azərbaycanın müasirliklə qədimliyin sintezini necə yaratdığını görür. Hazırkı dövrün əsas çağırışı işğaldan azad edilmiş ərazilərimizin yenidən bərpası olduğundan dünyanın diqqəti bu torpaqlara yönəlib. Şəhərlərin Baş planlarında sistemli şəkildə görülməsi nəzərdə tutulan işlər öz əksini tapıb. Bu ərazilərdə bütün yeniliklərin tətbiqi nəzərdə tutulub. Dünyaya Azərbaycan brendi kimi səs salan "ASAN xidmət", DOST mərkəzlərinin bu ərazilərdə də yaradılması prioritetdir. Hər bir ölkənin inkişafında vacib amil olan yol infrastrukturunun yenilənməsi istiqamətində mühüm addımlar atılır. İşğaldan azad edilmiş ərazilərimizin, o cümlədən bu gün Ağdam şəhərinin qonaqlarını qəbul etməsində əhəmiyyətli rol oynayan Füzuli Beynəlxalq Hava Limanı beynəlxalq standartlara cavab verir. Bu ay Zəngilan Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. Laçın Beynəlxalq Hava Limanının isə 2025-ci ildə istifadəyə verilməsi nəzərdə tutulur. Yeni avtomobil, dəmir yolları çəkilir. "Ağıllı şəhər" və "ağıllı kənd" layihəsi çərçivəsində yenidən bərpa olunan, soydaşlarımızın yaxşı şəraitdə yaşayışı üçün zəruri addımlar atılan bu torpaqlarımız sözün əsl mənasında cənnət məkana çevrilir."

Vüqar Rəhimzadə vurğulayıb ki, dövlət başçısı İlham Əliyev Forumda "Burada - Ağdamda gördüklərinizi Qarabağ ərazisində hər bir kənddə görə bilərsiniz" söyləyərək bu mühüm məqamı da böyük qürur hissi ilə qeyd etdi ki, hazırda biz keçmiş məcburi köçkün və qaçqınları öz doğma yurdlarına mümkün qədər tez bir zamanda geri qaytarmaq üçün nəhəng bir çağırışla üzüzəyik. Böyük Qayıdış proqramının icrasına başlanıb.

YAP Xətai rayon təşkilatının sədri Azərbaycanın yaratdığı milli platformanın fonunda diqqəti məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirmək olan yeni siyasi platformaya- "Avropa siyasi birliyi"nə yönəldib: "Tarixi Zəfərimizin dünyaya diktə etdiyi çağırışlar əsasında yaranan bu platformanın Zirvə Toplantısına Avropa ailəsinin dəvəti ilə qatılan dövlət başçısı İlham Əliyevin yeni tribunadan dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn əsas prinsip olduğunu, ərazi bütövlüyü prinsipinin əsas götürülməsinin vacibliyini bəyan etməsi bir daha Azərbaycanın dəyişməz mövqeyinin dünyaya təqdimatı oldu. Hər iki yeni platforma postmünaqişə dövrünün əsas çağırışı olan sülh müqaviləsinin imzalanması fonunda regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunması ilə yeni əməkdaşlıq formatlarının yaradılmasında, əlaqələrin inkişafında öz sözünü deyəcək. Azərbaycan Milli Şəhərsalma Forumunu Ağdamın beynəlxalq əlaqələrinin başlanğıcı kimi dəyərləndirən dövlət başçısı İlham Əliyevin Ağdam və dünyanın bir çox şəhərlərinin qardaş şəhərlər olacağı ilə bağlı səsləndirdiyi əminlik də bunun təsdiqidir."

# "Ermənistan təxribat etsə, öz başında çatlayacaq"

"Ermənistan ordusu yenə də öz təxribatlarına ara vermir. Demək olar ki, hər gün sərhəd boyunca gərginlik yaradır, atəşkəsi pozur. Səbəb? Səbəb tam olaraq aydın deyil. Bilinmir, bunlar sülh istəyirlər, yoxsa müharibə? Ermənistanı idarə edənlər hələ də anlamırlar, ya da anlamaq istəmirlər ki, belə təxribatlarla nəyəsə nail olmaq mümkün deyil". Bunu "Səs" qəzetinə açıqlamasında millət vəkili Elşən Musayev deyib.



Onun sözlərinə görə, Azərbaycan yetərincə güclüdür və həmin gücün hansı səviyyədə olması 44 günlük müharibədə də hər kəsə məlum oldu: "Yeni, hərb yolu ilə Ermənistanın Azərbaycana hansısa təsir, təzyiq edə bilməsi və ya Ermənistandakı revanşistlərin məqsədinə çatması, çata bilməsi mümkün deyil. Hətta bunu düşünmək belə absurddur. Üstəlik, diplomatiyada da bizə uduzurlar. Başqa qalır nə? - Yalnız və yalnız münasibətləri düzəltmək, sabitlik üçün çarələr axtarmaq. Sabitliyin də yeganə çarəsi sülh müqaviləsinin bağlanmasıdır".

Elşən Musayev onu da bildirdi ki, bundan sonra Ermənistan təxribat etsə, öz başında çatlayacaq: "Çünki onlar 44 günlük müharibədə bitiblər, rəzil olublar, rüsvay olublar. Ermənistandakı revanşistlər isə nağılpərəstlərdir. Paşinyan həmin terrorçuların sözü və ağlı oturub dursa öz dövlətini tamamən batıracaq. Çünki zaman dəyişib, şərait dəyişib, şərtlər dəyişib. Hazırda diktə edən tərəf Azərbaycandır. Güclü və qalib tərəf də bizik. Bir daha qeyd etmək istəyirəm: Paşinyan lazım olanı etməsə, sülh müqaviləsini bağlamasa, üçtərəfli anlaşmalardakı öhdəlikləri yerinə yetirməsə, yalnız və yalnız uduzacaq, Ermənistanı uçurumun dibinə qədər aparacaq".

***Gülyana***

# Erməni deputat: "Gorus-Qafan yolu Ermənistanın sərhədlərinə daxil deyil"

Ermənistan parlamentinin deputatı, hakimiyyəti təmsil edən "Vətəndaş sazişi" partiyasının nümayəndəsi Vaaqn Aleksanyan Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması ilə bağlı ünvanlandığı sualına cavab olaraq bildirib ki, artıq bu barədə razılaşma əldə olunub. SİA xəbər verir ki, erməni deputatı bu barədə 1.in erməni saytına açıqlamasında bildirib. Erməni jurnalistinin Gorus-Qafan yolu ilə əlaqəli sualına da müvafiq cavab verən deputat deyib: "Söhbət 9 (10-R.R.) noyabrdan sonra Azərbaycanın nəzarəti altına keçən məntəqədən gedir elə deyilmi? Əgər belədirsə, xeyr, Gorus-Qafan Ermənistanın sərhədlərinə daxil deyil".



***Rövşən RƏSULOV***

# "Bakcell"in dəstəyilə növbəti "Xəzəri qoruyaq!" kampaniyası

Bakcell şirkətinin də tərəfdaşı olduğu "Xəzəri qoruyaq!" Beynəlxalq Sahilyanı Təmizlik Kampaniyasının yekun aksiyası keçirilib. On ildən çoxdur təşkil olunan kampaniya bu il daha geniş miqyasda həyata keçirilib və ilk dəfə bütün Xəzər sahili rayonları əhatə edib.




Kampaniyanın keçirilməsində məqsəd ölkədə ekoloji durumun yaxşılaşdırılması, əhalinin bu sahədə maarifləndirilməsi və ətraf mühitə məsuliyyətlə yanaşma prinsiplərini təbliğ etməkdir. Bu il "Xəzəri qoruyaq!" Beynəlxalq Sahilyanı Təmizlik Kampaniyası "Coca-Cola", "Bakcell", "PAŞA Bank" və "CarlsbergAzerbaijan" şirkətlərinin tərəfdaşlığı, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, ASAN Xidmətin, "ASAN Könüllüləri" Təşkilatının dəstəyi və "EcoHub" ekoloji platformasının icraçı tərəfdaşlığı ilə həyata keçirilib. Aksiyanın təşkilatçılığında bir çox digər təşkilat, idarə və şirkətlər iştirak edib.

Sentyabr ayı ərzində Xaçmaz, Şabran, Siyəzən, Neftçala, Astara, Lənkəran, Sumqayıt və Bakıda yerləşən ictimai çimərliklərdə təşkil olunan təmizlik aksiyalarında 1500 könüllü 10 hektar ərazini 5 ton tullantıdan təmizləyib.

ARAŞDIRMA

# Bazarlarda ərzaq qiymətləri necə dəyişir?

**2022-ci ilin oktyabr ayında ərzaq qiymətləri indeksində avqustla müqayisədə xeyli azalma müşahidə olunur. Sentyabr ayından başlayan bu azalma dünya bitki yağı qiymətlərində də kəskin düşüb. Taxıl qiymətləri indeksindəki artımdan daha böyük olan şəkər, ət və süd məhsullarının qiymətlərində də mülayim enişlər nəzərə çarpır.**



İndeksdə davam edən bu eniş palma, soya, günəbaxan və kolza yağlarının ucuzlaşmasına gətirib çıxarıb. Sentyabr ayında palma yağı qiymətləri, əsasən, Cənub-Şərqi Asiyada mövsümi yüksək hasilatla birləşən davamlı ehtiyatlar səbəbindən ardıcıl olaraq azalmağa davam edir. Eyni zamanda, kənd təsərrüfatı müəssisələri tərəfindən satışların kəskin artması nəticəsində Argentinadan ixrac təklifinin artması səbəbindən qlobal soya yağının qiyməti azalıb. Günəbaxan yağında dünya qiymətləri idxal tələbi fonunda Qara dəniz regionundan ixrac təklifinin artması nəticəsində 14 ayın ən aşağı səviyyəsinə düşüb. Dünya bazarında bitki yağlarının ucuzlaşmasına xam neftin qiymətinin düşməsi də təsir edib.





Qeyri-müəyyənlik fonunda Amerika Birləşmiş Ştatları və Avropa İttifaqında gözlənilən tədarük çatışmazlığının və məhsul perspektivlərinin təsirini kompensasiya etdiyi üçün dünyada qarğıdalı, arpa qiymətləri əsasən Avstraliya və Rusiya Federasiyasında daha yaxşı məhsul perspektivlərini əks etdirir.



Bütün növ süd məhsullarının dünya qiymətləri mülayim şəkildə aşağı düşüb ki, bu da avronun ABŞ dollarına nisbətdə ucuzlaşmasının, bu məhsulların dünya qiymətlərinə (ABŞ dolları ilə ifadə olunan) təsirini daha çox əks etdirir. Bundan əlavə, süd məhsullarının qlobal qiymət kotirovkaları, məhdud süd istehsalı, yüksək enerji xərcləri və çatışmazlıqlar səbəbindən bazar qeyri-müəyyənliyi ilə bağlı narahatlıqlar səbəbindən orta müddətli tədarük üçün məhdud bazar tələbi ilə əlaqədardır. Eyni zamanda, xüsusilə Asiya ölkələrindən də çatdırılma ilə müqavilələr üzrə məhsullara tələbat hələ də sabitdir.

Oktyabr ayında dünya bazarında ətin qiymətləri də çox azalıb ki, bu da məzənnə dinamikasının təsiri ilə bağlıdır. Braziliyadan yüksək ixrac tədarükü və bəzi istehsalçı ölkələrdə qırğınların artması səbəbindən mal ətinin qiymətləri azalıb və quş ətinin qiymətləri cüzi qlobal idxal fonunda dəyişib.

Bəs ölkəmizdə vəziyyət necədir?

Ekspertlərin fikirlərinə görə, Azərbaycanda idxal asılılıqdan əlavə olaraq təsərrüfat subyektlərinin qiymətlərinin enməsinə imkan vermir və yaxın müddətdə də verməyəcəkdir. Ən yaxşı halda qiymət stabilləşəcəkdir. Dünyada hazırda 850-900 milyon ətrafında insan aclıqdan əziyyət çəkir. Lakin Azərbaycan ərzaq qıtlığı ilə, hələlik, üzüzə deyil.



Dünyada baş verən proseslərdə ölkəmizin ərzaq təhlükəsizliyinə potensial mənfi təsirinin qarşısını almaq məqsədilə Nazirlər Kabineti minimum istehlak səbətinə daxil olan bir sıra ərzaq məhsullarının ölkə ərazisindən çıxarılmasının tənzimlənməsini nəzərdə tutan qərarlar qəbul edib.

Digər tərəfdən, 2025-ci ilədək dünya bazarında ərzağa tələbin artmaqda davam edəcəyi gözlənilir. Hətta 3 il sonra qlobal bazarda daha ciddi qıtlığın olacağı istisna deyil. Bu baxımdan, strateji ərzaq məhsullarının yerli istehsalının genişləndirilməsi və xüsusən işğaldan azad olunan ərazilərimizin potensialından daha qısa zamanda istifadəyə başlanılması çox önəmlidir. Bütövlükdə, dünya ərzaq qıtlığı ilə üz-üzədir.

Ötən ilin 9 ayı ərzində Azərbaycana 1 milyard 185 milyon 30 min dollar dəyərində yeyinti məhsulları idxal edilmişdi. Dövlət Gömrük Komitəsinin məlumatları göstərir ki, keçəni ilin 9 ayı ilə müqayisədə bu ilin 9 ayı ərzində statistik dəyər baxımından ət, süd, kərə yağı, buğda, düyü idxalı azalıb, meyvə-tərəvəz, çay, bitki yağları idxalı artıb. Azərbaycan ən çox xarici valyutanı bitki yağları, meyvə-tərəvəz və buğda idxalına xərcləyir. Elə bu fonda vacib məsələlərdən biri ərzaq təhlükəsizliyinin etibarlı təminidir.

Azərbaycanın mövcud imkanları və xüsusən də işğaldan azad olunmuş ərazilərimizin potensialı ərzaq təminatının və eləcə də ərzaq təhlükəsizliyinin formalaşmasına imkan yaradır.



Hətta bəzi məhsullar üzrə gələcəkdə - növbəti 5 il ərzində dünya bazarında qıtlığın yaranması ehtimalı və riskləri kifayət qədər çoxdur. Ona görə də təhlükəsizliyin formalaşması üçün ərzaq təminatının genişləndirilməsi olduqca vacibdir. İdxaldan asılılığın aradan qaldırılması və yerli istehsal hesabına tələbin ödənilməsinə ehtiyac var. Dövlət dəstəyinin bu istiqamətdə artırılması və daha çox subsidiyaların təklif olunması vacibdir. Çünki subsidiyalar ünvanlı verilsə də, təkliflər ondan ibarətdir ki, bunun yalnız strateji deyil, digər məhsullar üzrə də istehsal edilən məhsulun həcminə bağlanması və əlaqələndirilməsi daha uyğundur.

***Havar Şəfiyeva***





# Evlənəndən sonra "düzələcək"?

***Günümüzdə cütlüklərin əksəriyyəti evləndikdə yaşadıqları problemlərin keçəcəyini düşünür. Daha çox qadınlar qısqanc sevgilinin, yaxud şiddətə meyilli adamın müsbətə doğru dəyişəcəyinə inanır. Lakin heç bir şey dəyişmir və problemlər getdikcə kəskin bir hal alır. Çünki tanışlıq dövründəki problemlər evləndikdən sonra daha da artır.***

Sağlam ailənin təməli düzgün ər-arvad münasibətidir. Bir münasibətə başlamazdan əvvəl nəzərə alınmalı bəzi şeylər var. Qarşı tərəf həddindən artıq qısqanc ola, narkotik istifadə edə, yaxud sizi sevməyə bilər. Biz bu tip adamları sevib "Evlənəndə yaxşılaşar", "Uşaq olanda düzələr" deyərək evlənməməliyik. Bizdə belə bir ifadə var ki, "Evlənəndən sonra düzələcək". Baxırsan ki, adam içki içir, evə yığışmır, bəlkə qumar oynayır, bu adam psixoloji olaraq hər hansı bir məsuliyyəti götürməyə hazır deyil, ən azından işləmir belə və bizdə insanların yanaşması odur ki, "Evləndir düzələcək". Evlilik anlayışı bu qədər bəsitdirmi? Problemlərin açarı evlilikdirmi?! SİA mövzu ilə bağlı araşdırma aparıb.

Qarşı tərəflər ortaq cəhətləriniz və ümumi zövq aldığınız şeylər olmalıdır. Sevgi insanın gözünü kor etdiyi üçün qüsurları görmək imkanımız olmur. Amma etiraf edək ki, bu, keçicidir və bir müddət sonra sevgi də azalır. Bu zaman da qüsurlar ön plana çıxır. Kişi axşamlar kinoya baxır, qadın isə təkbaşına onu gözləyir. Unutmayaq ki, qadın sevildiyi müddətcə var ola bilən bir varlıqdır. Hər gecə televizor qarşısında oturub filmə baxan və başqa heç nə ilə maraqlanmayan həyat yoldaşları olan qadınların psixi sağlamlığı yaxşı vəziyyətdə ola bilməz. Bunlar kiçik, lakin vacib detallardır. Bir çox insanın evliliyi bunlara görə bitir. Bir çox cütlük bunlara görə boşanmağa qərar verir və son mərhələdə inadkar olanlar psixoloji dəstək alır.

Cütlüklərdən biri və ya hər ikisi keçmişdə travmatik hadisələr yaşayıbsa (baxımsızlıq, zorakılıq, sevgisizlik, valideyn itkisi və s.) və bu travma aradan qaldırılmasa, evlilikdə problem yaşanacaq. Məsələn, şəxs zorakılığa məruz qalıbsa, ailəsində zorakılıq müşahidə edibsə və ya cinsi qısnama və ya laqeydlik kimi problemlərlə üzləşibsə, bu, onun evliliyinə mənfi təsir göstərə bilər.

## Evlənmək üçün yanlız sevgi kifayətdir?

Sevdiyiniz insanın qüsurlarını hələ görmədiyiniz üçün bu qüsurlar bir müddət sonra üzə çıxacaq. Belə olan halda məntiq evliliyi daha təhlükəsizdir. Çünki bu zaman bütün risk faktorlarını aydın görmək olur.

Unutmayaq ki, başqasının qızı sizin oğlunuzun dərmanı deyil. Uşağınızın psixoloji bir problemi varsa, onu evləndirərək sağaltmağı düşünməyin. Bəzi valideynlər öz uşaqlarının problemlərini həll etmək yerinə, başqasının qızını qurban seçir. Valideynlər düşünür ki, övladları evləndikdən sonra psixoloji vəziyyəti düzələcək, əsəbləri sakitləşər, mənfi xüsusiyyətləri dəyişər. Öz valideynlik öhdəliklərinizi yerinə yetirməmək üçün, o məsuliyyəti üzərinizdən atmaq üçün oğlunuzu evləndirib yükü başqasının qızının üzərinə atırsız. Evlənmək məsuliyyətini özündə hiss etməyən oğullarınıız niyə məcbur edib evləndirirsiniz? Niyə onu zorla başqasına ər, bir uşağa isə ata edirsiz? Hər kəs evlənmək məcburiyyətində deyil.





Evlənməzdən əvvəl münasibətdə olduğunuz insanlarla mütləq danışmalı olduğunuz məsələlər var:

1. Yaşayacağınız ev
2. Maliyyə məsələləri
3. Ailə problemləri
4. Cinsi əlaqə
5. Uşaq sahibi olmaq
6. Özəl sahə limitləri
7. Gələcək Planlar

Evlilik qərarı alarkən bu məqamlara diqqət edin:

1. **Şəxslər arasında sevgi olması mütləqdir**
2. Maliyyə Vəziyyətləri
3. Qarşılıqlı hörmət
4. Qərarlılıq
5. Güvən
6. Xaraktercə uyğunluq
7. Ortaq cəhətlər
8. Empatiya bacarığı. Yəni, biri-birini anlamaq.

Həyatın bütün sahələrində olduğu kimi, evlilikdə də danışmaq və ortaq qərara gəlmək lazımdır. Əgər cütlüklər özləri buna nail ola bilmirlərsə, psixoloji dəstək almalıdırlar. Bəzi cütlüklər harada yaşayacaqlarından tutmuş, uşaq sahibi olub-olmayacağına qədər bir çox mövzuda müzakirə aparmırlar. Əgər insanın tarixində həll olunmamış və hələ də təsirli travmatik hadisələr varsa, evlilikdə problem yaranacaq.

***Ayşən Vəli***



# Rusiyalı ekspert:
# "Ermənistanda Qərb missiyasının peyda olması Moskvanı əsəbiləşdirəcək"

Georgi Fyodorov: "Qərb Ermənistanla Azərbaycan arasındakı münasibətlərdəki problemləri heç vaxt həll etməyəcək. Bu onun üçün sərfəli deyil"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" çərçivəsində hazırlanıb.





Ermənistanda son vaxtlar ciddi şəkildə Qərbyönümlü kurs götürülməsi və Rusiya əleyhinə açıq əməllər, həmçinin, Paşinyanın Avropa missiyasını ölkəyə dəvət etməsi Moskvanın xoşuna gəlmir. Bu vəziyyətdə Moskva İrəvanı cəzalandıra bilərmi? Rusiyanın siyasi və ictimai xadimi, Rusiya Federasiyası İctimai Palatasının üzvü, "Aspekt" Sosial-Siyasi Araşdırmalar Mərkəzinin prezidenti Georgi Fedorov "Caliber" analitik mərkəzinə müsahibəsində regionda gedən proseslər, baş verən hadisələr haqda maraqlı fikirlər səsləndirib. Ekspertin müsahibəsini oxucularımızın diqqətinə çatdırırıq.

***- Georgi Vladimiroviç, bildiyiniz kimi, ötən həftə Praqada Türkiyə, Azərbaycan və Ermənistan liderlərinin qeyri-rəsmi görüşü oldu. Sizcə, bu, Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə münasibətlərinin tənzimlənməsinə necə təsir edəcək və bu iki istiqamətdə normallaşma barədə nə düşünürsünüz?***

- Praqada keçirilən görüşün bəzi humanitar təmaslara təsir edəcəyinə inanıram. Bu, münasibətlərin normallaşması istiqamətində addım atmaq məqsədi ilə bir növ çərçivə danışıqlarına çevrilə bilər, lakin yaxın gələcəkdə tam normallaşma olmayacaq. Çünki Ermənistanda ordu, cəmiyyət yaralıdır, Azərbaycan isə buna qane olur. Ümumiyyətlə, ölkələr arasında hələ də çoxlu ziddiyyətlər var.

***- Sizcə, son vaxtlar Fransa və ABŞ-ın Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanmasında fəallaşmasının əsas səbəbi nədir?***

- ABŞ və Fransada böyük və nüfuzlu erməni diasporu var. Həm biznesdə, həm də siyasi dairələrdə. Ermənistanla Azərbaycan arasında münasibətlərə belə böyük maraq da buna görədir. Həm Fransada, həm də ABŞ-da seçki dövrünün yaxınlaşması ilə onların hakimiyyət orqanları Ermənistan-Azərbaycan münasibətlərinə getdikcə daha çox təsir göstərməyə çalışacaqlar.

***- Azərbaycan və Ermənistan liderlərinin, eləcə də Aİ rəhbərinin və Fransa prezidentinin Praqada keçirilən dördtərəfli görüşündə qərara alınan Aİ missiyasının Ermənistan ərazisində yerləşdirilməsi faktına Rusiya necə reaksiya verəcək?***

- Hələlik bu beynəlxalq vasitəçilərin kim olduğu bəlli deyil. Hesab edirəm ki, bəzi müvəqqəti humanitar və diplomatik missiyalar, məsələn, ATƏT-in monitorinqi üçün iştirak edə bilər. Amma bundan artıq yox. Anlamaq lazımdır ki, Rusiya faktiki olaraq ABŞ və NATO ilə qarşıdurmadadır, ona görə də Ermənistan ərazisində, yəni Cənubi Qafqaz regionunda dost olmayan ölkələrin nümayəndələrinin peyda olması Moskvanın mənfi reaksiyasına səbəb ola bilər.

- Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsinin aktivləşməsi və İrəvanın oriyentasiyasını dəyişərək Qərbə doğru irəliləmək cəhdləri fonunda 102-ci Rusiya hərbi bazasının Gümrüdən çıxarılmasına ehtimal verirsinizmi?

- Yox, hadisələrin belə inkişafına ehtimal vermirəm. Bu, Rusiya üçün sərfəli deyil. Bu, Ermənistan üçün də sərfəli deyil. Rusiya bazası çoxdan oradadır və vəziyyəti sabitləşdirmək üçün mühüm amildir.

***- Yəni, Ermənistanın tam Qərbə yönəlməsinə ehtimal vermirsiniz?***

- Ermənistanda indi daxili qarşıdurma var, Qərbdə bundan istifadə etməyə çalışa bilərlər. Amma başa düşmək lazımdır ki, Qərb Ermənistanla Azərbaycan arasındakı münasibətlərdəki problemləri heç vaxt həll etməyəcək. Bu onun üçün sərfəli deyil. Üstəlik, Türkiyə-Ermənistan-Azərbaycan çox ciddi geosiyasi düyündür, onu açmaq çox çətindir. Ona görə də Ermənistanın Qərbə son dönüşü, ümid edirəm ki, heç bir nəticə verməyəcək.







***- Sizcə, İrandakı etiraz hərəkatının arxasında nə və ya kim dayanır?***

- İranda daxili sosial ziddiyyətlər çox uzun müddətdir ki, var və böyüyür. Və çoxlu qüvvələr, o cümlədən ABŞ və İsrail İran İslam Respublikasında vəziyyətin sabitliyinin pozulmasından faydalanır. Ola bilsin ki, bu sabitliyin pozulması nəticəsində yaranan siyasi böhran Türkiyə, Azərbaycan və regionun digər qonşu dövlətlərində də müəyyən dərəcədə vəziyyətə təsir edə bilər.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
11 oktyabr
2022-ci il

# Oktyabrın 25-də Günəş tutulması olacaq



**2022-ci il oktyabrın 25-də Günəş tutulması baş verəcək. BDU-nun Astrofizika kafedrasından SİA-ya verilən xəbərə görə, tutulma qismən Günəş tutulmasıdır. Tutulma hadisəsi 12:58:21-də başlayacaq və 17:02:11-də sona çatacaq.**

Tutulmanın maksimumu 15:00:16-da olacaq. Tutulma hadisəsi 4 saat 3 dəqiqə 50 saniyə davam edəcək. Bu tutulma hadisəsi Avropanın əksər hissəsində, Afrikanın şimalında, Yaxın Şərqdə və Asiyanın qərbində müşahidə olunacaq. Tutulma hadisəsi Azərbaycanda da müşahidə ediləcək. Bakıda tutulma hadisəsi 13:59:38-də başlayacaq və 16:30:05-də sona çatacaq. Tutulmanın maksimumu 15:17:43-də olacaq.

## BİLİRSİNİZMİ?

Niaqara şəlaləsi dünyada tərs axan tək şəlalədir. Səbəbi budur ki, şəlalədən dəqiqədə 334.000 m3 su axır. Şəlalənin suyu o qədər sürətlə yerə tökülür ki, sular bu toqquşmanın təsiri ilə təkrar yuxarı qalxır və Şəlalənin başlanğıcına doğru bir axıntı əmələ gəlir.

***

Pilotlar və yardımçı pilotlar ola biləcək bir yemək zəhərlənməsi ilə eyni anda qarşılaşmamaq üçün fərqli yeməklər yeyirlər.

***

Şirin bibərin arxasındakı çıxıntı 3-dürsə erkək, 4-dürsə dişidir. Erkək olan bişirməyə, dişi olan isə çiy yeyilməyə uyğundur.

***

Cazibə qüvvəsi olmayan mühitdə şam alovu kürə şəklində olur.

***

Ədədləri sıra ilə gündə 24 saat saysanız, 1 trilyona çatmaq üçün 31 min 688 il lazım gələr.

# "Barselona"

## Messiyə heykəl ucaldacaq




**İspaniyanın "Barselona" klubu karyerasının böyük hissəsini Kataloniya komandasında keçirmiş argentinalı hücumçu Lionel Messinin heykəlini ucaltmaq niyyətindədir. SİA-nın "Goal"a istinadən verdiyi xəbərə görə, bu barədə klubun prezidenti Joan Laporta məlumat verib.**

"Biz Leo Messinin heykəlini "Kamp Nou"nun kənarında tikəcəyik. Qərar verilib", - klub prezidenti vurğulayıb. 2021-ci ildə "Barselona"dan ayrılan Messi ikinci mövsümünü Fransanın PSJ klubunda keçirir. Bu mövsüm Messi komandanın Fransa çempionatında keçirdiyi 9 oyunun hamısında meydana çıxıb, 5 qol vurub və 7 məhsuldar ötürmə edib. "Transfermarkt"ın məlumatına görə, Messinin bazar dəyəri 50 milyon avrodur.

Argentinalı "Barselona"nın yetirməsidir. O, 2004-cü ildə əsas komandada debüt edib. Kataloniya klubu ilə birlikdə 35 titula sahib olub. Forvard yeddi dəfə "Qızıl top" qazanıb.



# 9 nəfərin ölümünə bais oldu, özünü də öldürdülər

Hindistanın Bihar əyalətinin Çamparan bölgəsində 9 nəfərin ölümünə səbəb olan pələngə qarşı 200 polislə birgə əməliyyat keçirilib. SİA xəbər verir ki, pələngin yerini müəyyən etmək üçün aparılan əməliyyatda fillərdən də istifadə edilib. Aşkar edildikdən sonra 3 yaşlı pələng öldürülüb.

Ştatın vəhşi təbiətin mühafizəsi üzrə direktoru Kumar Qupta bildirib ki, əməliyyat pələngin insan həyatı üçün təhlükəli hesab edildiyi üçün başlayıb. Qupta bildirib ki, heyvanı sakitləşdirmək cəhdləri uğursuzluğa düçar olduqdan sonra zərərsizləşdirilib. Hindistanda dünya pələnglərinin təxminən 70 faizi yaşayır. Pələnglərin yaşadıqları qorunan ərazilərin heyvan sayındakı artım tempindən geri qaldığı üçün təbii yaşayış yerlərini tərk edərək insanlara hücum etdiyi bildirilir. Rəsmi məlumatlara görə, Hindistanda pələnglərin hücumu nəticəsində hər il 40-50 nəfər ölür.

# DİQQƏT:

## Bu əlamətlər sizdə qurd xəstəliyinin olmasına işarədir



Qurdlara istər böyük, istərsə də körpələr yoluxa bilər. Bəzi növləri öz-özünə tökülsə də, bəziləri uzun müalicə tələb edir. Bəs parazitlərə yoluxmaq özünü hansı əlamətlərlə biruzə verir? SİA həmin əlamətləri təqdim edir:

Qarın ağrısı;
Xoşagəlməz ağız qoxusu;
Allergiya (səpgilər, sulanmış gözlər, burun axması);
Dəridəki səpgi və qızartılar;
Angina, burun tutulması;
Xroniki yorğunluq ;
Qəbizlik və ya ishal;
Oynaq və əzələ ağrıları;
Yuxu pozuntusu;
Gözətrafı qara kölgələr və torbalar.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**